RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 193 (9648) 6 sentyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Son dörd ildə üçüncü səfər

◆ Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

## Yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirildi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin gün İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub. Romanın "Quirinale" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib. Romanın "Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İtaliya nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olundu.

Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə mübadiləsi mərasimi olub.

Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İtaliyanın paytaxtından Milan şəhərinə gediblər.

→ 2-3

## Birinci vitse-prezident Mehriban Əliyeva Komo gölündən paylaşım edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində İtaliyanın Lombardiya vilayətində yerləşən Komo gölündən paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

**"Komo gölündən salamlar! 05.09.2024"**, - deyə qeyd olunub.

## Azərbaycan İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır

İki ölkə arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir



Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində İtaliya Türkiyədən sonra ikinci yerdə dayanaraq bizimlə çiyin-çiyinə iştirak edir. Bu gün İtaliya şirkətləri elektrik stansiyalarının yenidən qurulmasında, işıqlandırma sistemlərinin, kənd təsərrüfatı müəssisələrinin yaradılmasında və digər sahələrdə fəaliyyət göstərirlər. Bu da Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma və bərpası prosesini sürətləndirir, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını tezləşdirir.

Azərbaycanla İtaliya arasında enerji sahəsində əməkdaşlığın dərinləşməsi ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və Azərbaycana geosiyasi üstünlüklər qazandırır. Azərbaycan neftinin ən böyük alıcılarından biri olan İtaliyaya həm də TAP marşrutu vasitəsilə qaz ixrac olunmağa başlayıb. TAP kəmərinin İtaliyaya qədər uzanması digər Avropa ölkələrinə də qaz ixracımızın şaxələndirilməsinə yol açır.

→ 5

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan Vəli İsrafilovu təbrik edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Vəli İsrafilovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Azərbaycan paraüzgüçüsü Vəli İsrafilov "Paris-2024" Yay Paralimpiya Oyunlarının bürünc mükafatçısıdır! İdmançımızı təbrik edir, ona yeni qələbələr və nailiyyətlər arzulayıram!"

## Yeddinci medal

**Azərbaycanın paraüzgüçüsü Vəli İsrafilov Fransada keçirilən "Paris-2024" Yay Paralimpiya Oyunlarında finalda mübarizə aparıb.**

B13 kateqoriyasında mübarizə aparan paralimpiyaçı 100 metr məsafəyə brass üsulu ilə yarışıb. Təmsilçimiz 1:05:35 nəticə ilə üçüncü pillədə qərarlaşaraq bürünc medal qazanıb.

Qeyd edək ki, Azərbaycan yığması "Paris-2024"də 3 qızıl, 1 gümüş, 3 bürünc qazanıb.



## Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 5-i saat 09:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zivel yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb", - deyə məlumatda bildirilib.

## Fransa insan haqları və demokratiya adına ləkədir

Azərbaycan cənab İlham Əliyevin qətiyyəti ilə Fransanın bütün təhdidlərini lazımi adekvat və sərt cavablar verməklə aradan qaldırıb və Paris faktiki olaraq Cənubi Qafqazdakı güc və nüfuzundan məhrum olub. Ardıcıl məğlubiyyət və Cənubi Qafqazda itirilən mövqelər Makron diktatura rejimini daha da azğınlaşdırıb. Fransa bütün mümkün vasitələrdən istifadə edərək Azərbaycanı qaralama kampaniyasına yeni mərhələdə start verib. Bu xüsusda özünü qlobal ombudsman kimi təqdim etməyə çalışan Fransa insan haqları və demokratiya pərdəsi altında yerli vətəndaş cəmiyyəti institutlarından, habelə beynəlxalq çərçivədə bu istiqamətdə fəaliyyət göstərən, əslində isə muzdlu terror təsisatlarından heç bir fərqi olmayan qlobal insan haqları təşkilatlarını da alətə çevirməyə cəhd edib və bir çox hallarda bunu bacarıb. Lakin Azərbaycanın bu proseslərə kifayət qədər aydın və həssas baxışla yanaşması, xüsusən cənab Prezidentin 2010-cu illərin əvvəllərindən etibarən vətəndaş cəmiyyəti institutları sahəsində qanunvericiliyi şəffaflaşdırması, bu sahədə fəaliyyətin, bu cəmiyyətlərin sağlam formada təşəkkül tapmasına maneə törətmədən bu sektora nəzarəti gücləndirməsi Fransanı bölgədə yerli alətlərdən məhrum edib.

→ 5

◆ Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

# Son dörd ildə üçüncü səfər

## Yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirildi

## Prezident İlham Əliyevin Romada İtaliya Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.**

AZƏRTAC xəbər verir ki, Romanın "Quirinale" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sonra birgə foto çəkdirildi.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırladı.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğuladı, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd etdi. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulandı. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olundu.

Söhbət zamanı humanitar və mədəni əlaqələrin önəminə toxunuldu, ADA Universiteti ilə İtaliyanın beş universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti qeyd edildi. Burada təhsil alan tələbələrin gələcəkdə ölkələrimiz arasında dostluğun elçiləri olacaqlarına və münasibətlərimizin inkişafına töhfə verəcəklərinə əminlik bildirildi.



İtaliya-Azərbaycan Universitetinin yaradılmasının böyük əhəmiyyət daşıdığını deyən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu dedi və ölkəsinin COP29-da yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğuladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda ölkəmizə olan etimadın göstəricisidir. Dövlətimizin başçısı COP29 - beynəlxalq iqlim dəyişikliyi məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Dövlətimizin başçısı Azərbaycanın COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcəyini vurğuladı.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı və Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud olduğunu dedi. Bununla belə, dövlətimizin başçısı təəssüflə qeyd etdi ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Regionda sülh gündəliyinə toxunan Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirdi. Dövlətimizin başçısı buna baxmayaraq, Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğunu qeyd edərək, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğuladı və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirdi.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulandı.

Sonda Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət etdi. Sercio Mattarella dəvəti məmnunluqla qəbul etdi.

## "Eni S.P.A" şirkətinin baş icraçı direktoru ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə SOCAR ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunuldu, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, sənədlərin imzalanmasından sonra "Eni S.P.A" şirkəti daha qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi üçün işçi plan və strategiya hazırlayacaq.



◆ Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

# Son dörd ildə üçüncü səfər

## Yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirildi

## Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib







**Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.**





AZƏRTAC xəbər verir ki, Romanın "Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliya nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olundu.

Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni birgə foto çəkdirdilər.

Əvvəlcə Prezident İlham Əliyev ilə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin təkbətək görüşü oldu.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Ciorcia Meloni dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğunu vurğulayaraq, Prezident İlham Əliyevlə İtaliya-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığını qeyd etdi, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyini bildirdi. Bu xüsusda, ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparıldı. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya-Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olundu. Enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edildi. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, onun bu gün İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunuldu, TAP-ın ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparıldı.

İtaliya Nazirlər Şurasının sədri Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirdi və bu xüsusda, ölkəmizin rolunu qeyd etdi. O, COP29-a dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi və bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini vurğuladı.

İtaliya Nazirlər Şurasının sədri COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu dedi. Bu xüsusda, İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanın COP nümayəndə heyəti ilə yaxından əməkdaşlığı və Azərbaycanın COP prezidentinin G20 çərçivəsində İtaliyada keçirilən ekologiya nazirlərinin toplantısında iştirakı qeyd olundu.

Söhbət zamanı İtaliyanın "Eni S.P.A" şirkəti ilə SOCAR arasında yeni əməkdaşlıq sahələrinin müəyyən olunması məmnunluqla qeyd edildi, bu şirkətlərin üçüncü ölkələrdə birgə layihələrdə iştirakı məsələsi barədə fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycanın və İtaliyanın üçüncü ölkələrdə birgə investisiya layihələrində iştirakı məsələsinə toxunuldu. Orta dəhlizin əhəmiyyəti vurğulandı və İtaliya şirkətlərinin də bu dəhlizin imkanlarından istifadə etməsi perspektivləri müzakirə olundu.

İtaliya-Azərbaycan iqtisadi əməkdaşlıq məsələləri üzrə komissiyanın roluna toxunuldu, gələn il komissiyanın iclasının keçirilməsi razılaşdırıldı.

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurasının sədrini Azərbaycana rəsmi səfərə dəvət etdi. Ciorcia Meloni dəvəti məmnunluqla qəbul etdi.

## Sənədlərin mübadiləsi mərasimi



**Sentyabrın 5-də Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.

## Prezident İlham Əliyev Milan şəhərinə gedib



**Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İtaliyanın paytaxtından Milan şəhərinə gediblər.**

AZƏRTAC xəbər verir ki, Milanın Malpensa hava limanında dövlətimizin başçısını və birinci xanımı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

# Azərbaycanın Baş naziri Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 5-də Beynəlxalq Maliyyə Korporasiyasının Avropa üzrə Regional Direktoru İnes Roşanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, görüşdə Azərbaycan ilə Dünya Bankı və Dünya Bankı Qrupuna daxil olan qurumlar arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu vurğulanıb.

Dünya Bankının Azərbaycanla Ölkə Tərəfdaşlıq Çərçivəsinin (ÖTÇ) əhəmiyyəti qeyd olunub, 2025-2029-cu illəri əhatə edəcək yeni ÖTÇ-nin hazırlanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Ölkəmizin Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlığının hazırkı səviyyəsindən, müxtəlif sahələrdə həyata keçirilən birgə layihələrin nəticələrindən məmnunluq ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran sahələrdə, o cümlədən dövlət-özəl tərəfdaşlığı, xarici investisiyaların cəlb olunması, COP29 çərçivəsində birgə fəaliyyət və digər aktual istiqamətlərdə əməkdaşlıq imkanları müzakirə edilib.

# "Azərbaycan müəllimi" qəzetinin 90 illik yubiley tədbiri keçirilib

Sentyabrın 5-də Nizami Kino Mərkəzində Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan müəllimi" qəzetinin 90 illik yubiley tədbiri keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən "Azərbaycan müəllimi"nin baş redaktoru Sarvan İbrahimov qəzetin Azərbaycan mətbuatının inkişafındakı tarixi rolundan bəhs edib. O qeyd edib ki, ölkəmizin təhsil salnaməsini yaradan "Azərbaycan müəllimi" 1934-cü il sentyabrın 2-dən "Kommunist maarifi" adı ilə nəşr olunmağa başlayıb. Sonrakı dövrlərdə "Müəllim qəzeti" adı ilə çap olunub. Qəzetin əsas məramı ölkəmizdə xalq maarifinin, təhsilin inkişafına xidmət olub. Qəzetin nəşrində başlıca məqsəd ölkədə maarif işlərinin həyata keçirilməsinə dəstək göstərmək, tədris sahəsində qazanılmış ilk təcrübə və uğurları geniş təbliğ etmək, təhsillə bağlı qarşıda duran vəzifələri gündəmə gətirmək və onların reallaşdırılmasına nail olmaq idi. Fəaliyyətinin ilk illərindən ölkənin təhsil sahəsində baş verən yenilikləri, qabaqcıl dünya təcrübəsini oxuculara çatdıran "Azərbaycan müəllimi"nin təkcə respublikamızda deyil, keçmiş ittifaq respublikalarında, hətta xarici ölkələrdə belə oxucuları olub. Qəzetdə dərc olunan məqalələr özünün publisistik dəyəri ilə seçilib, o, cəmiyyətimiz üçün bir sıra aktual məsələləri daim diqqətdə saxlayıb. Respublikamızda təhsil islahatlarının həyata keçirilməsində, təhsilin və elmin inkişafında, bütövlükdə milli təhsilimizin uğurlarında "Azərbaycan müəllimi" qəzetinin rolu əvəzsizdir.

Sonra qəzetin 90 illik yubileyinə həsr edilmiş sənədli film nümayiş etdirilib.

Yubiley tədbirində qəzetin yeni saytının təqdimatı keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, qəzet fəaliyyətinin ilk illərindən ölkənin elm və təhsil sahəsində baş verən yenilikləri, qabaqcıl dünya təcrübəsini oxuculara çatdıran mühüm yayım orqanı kimi kifayət qədər nüfuza malik olub.

Nazir deyib: "Ölkəmizin təhsil sisteminin siması olan müəllimlərimizin adını brendləşdirən qəzet hazırda da elm və təhsil sahəsində aparılan islahatların təbliğində əvəzsiz rol oynayır. Təhsil sahəsində dəyərli məzmun yaratmaq hər zaman əsas çağırışlardan olub.

Gənc nəsillərin, eləcə də təhsilin formalaşması ilə bağlı cəmiyyətdə bir çox məqamların geniş müzakirəsinə və debatlara ehtiyac var. Çünki fikirlər nə qədər çox və müxtəlif olsa, müzakirə zamanı həqiqətə daha da yaxınlaşmaq olar".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında "Azərbaycan müəllimi" qəzetinin keçdiyi şərəfli yolu milli mətbuat tariximizin ayrılmaz tərkib hissəsi və qürur mənbəyi kimi dəyərləndirib. O, çıxışında həmçinin müstəqillik illərində Azərbaycan mətbuatına yaradılan imkanlardan danışıb. Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin senzuranın ləğvi kimi tarixi əhəmiyyətli qərarından sonra medianın inkişafı üçün əlverişli şərait yaranıb: "Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm kimi prinsiplər mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsasını təşkil edir.

Ulu Öndər Heydər Əliyevin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin həyatında medianın rolunu yüksək qiymətləndirərək müstəqil medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız qalibiyyət medianın da inkişafına impuls verib, yeni mərhələnin başlanmasını şərtləndirib".

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, bu qəzet böyük bir epoxanın, dövrün, pedaqoji təhsil həyatımızın salnaməsidir. "Azərbaycan müəllimi" qəzetinin bizim təhsilimizin ən müxtəlif sahələrinin işıqlandırılmasında özünəməxsus rolu var: "Təhsilin geniş bir sahə olduğunu və hər bir ailənin təhsillə bağlılığını nəzərə alsaq, "Azərbaycan müəllimi" qəzetinin önəmini xüsusi qeyd etmək lazımdır. Qəzet təhsilin ən müxtəlif sahələrini əhatə etməklə yanaşı, eyni zamanda müəllimlərə yol göstərməkdə, praktik kömək etməkdədir".

Tədbirdə "Azərbaycan müəllimi"nin yeni loqosu təqdim olunub.

Daha sonra rebrendinq müsabiqəsinin qalibi mükafatlandırılıb, qəzet əməkdaşları təltif ediliblər.

# COP29-un maliyyə dövriyyəsinə nəzarət ali audit orqanı ilə birgə aparılır

COP29-un maliyyə dövriyyəsinə nəzarət ali audit orqanı ilə birgə aparılır.

Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un keçirilməsi ilə bağlı hazırlıq tədbirləri davam edir. Hazırlıq çərçivəsində görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə ictimaiyyətə mütəmadi olaraq məlumatlar təqdim edilir. Konfransın keçirilməsi üçün dövlət büdcəsində müvafiq ayırmalar təsdiqlənib. Ayrılmış vəsaitlər hesabına dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri olan beynəlxalq konfransın yüksək səviyyədə təşkili və zəruri infrastrukturun qurulması üzrə işlərin aparılması nəzərdə tutulur.




COP29-a ayrılmış dövlət vəsaiti üzərində maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə ölkənin ali audit orqanı tərəfindən konfransın təşkili üzrə maliyyə idarəetməsinin, ayrılmış dövlət vəsaitinin təsdiq edilmiş göstəricilərə, bağlanılmış müqavilə məbləğlərinin aidiyyəti istiqamətdə ayrılmış vəsaitə, habelə müqavilələrin icrasının müqavilə şərtlərinə uyğunluğunun, həmçinin müvafiq sənədləşmənin tamlığının qiymətləndirilməsi aparılır. Məqsəd maliyyə nəzarətinin keçirilməsi zamanı pre-auditə (ilkin auditə) dair müvafiq audit prinsiplərində qeyd olunan məqamlar da nəzərə alınmaqla maliyyə pozuntuları baş verməzdən əvvəl onların qarşısının alınmasıdır.

Eyni zamanda maliyyə nəzarətinin aparılmasında məqsəd hesabatlılıq və şəffaflıqla yanaşı, tədbirin təşkili üçün ayrılmış vəsaitin səmərəli istifadə edilməsi, qənaət olunan məbləğlərin büdcəyə qaytarılmasıdır.

Qeyd olunmalıdır ki, tədbir başa çatdıqdan sonra icra edilmiş bütün xərclərin auditi üzrə müvafiq qaydada həm beynəlxalq təşkilat, həm də Hesablama Palatası tərəfindən hesabatın və auditor rəyinin hazırlanması nəzərdə tutulur.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası sizləri, Yeni Azərbaycan Partiyasının bütün tərəfdarlarını və fəallarını 2024-cü il 1 sentyabr tarixində baş tutmuş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə qazanılmış inamlı qələbə münasibətilə təbrik edir.

Biz Özbəkistandan seçki kampaniyasını diqqətlə izlədik və əminliklə deyə bilərik ki, Azərbaycanda parlament seçkiləri uğurla keçirildi. Ölkənizdə seçki üçün bütün zəruri qanunvericilik və təşkilati imkanlar yaradılmışdır. Ona görə də seçkilər hamı tərəfindən qəbul edilmiş demokratik standartlar əsasında açıq və şəffaf mühitdə keçirilmişdir. Xüsusi vurğulamaq istərdik ki, bu seçki kampaniyası Azərbaycanın bütün ərazisini əhatə edərək, ölkənizin ərazi bütövlüyünün və suverenliyinin bərpasının bariz təcəssümünə çevrildi.

Fürsətdən istifadə edərək, partiyanızla müvafiq memorandumun imzalanması ilə yeni səviyyəyə yüksələn səmərəli əməkdaşlığa hazır olduğumuzu bir daha bildiririk. Ölkələrimizin prezidentlərinin siyasi kursunun təzahürü olmuş bu addımın mühüm qarşılıqlı faydalar gətirəcəyinə və çoxşaxəli strateji tərəfdaşlığımızın yüksək ruhunu daha da artıracağına əminik.

Bütövlükdə hesab edirik ki, bu ilin 1 sentyabr seçkilərində qazanılmış qələbə zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın diqqətəlayiq sosial-iqtisadi inkişafının və yüksək beynəlxalq nüfuzunun xalq tərəfindən qiymətləndirilməsinin və dövlət başçısının ideyalarının partiyanız tərəfindən fəal şəkildə həyata keçirilməsinin sübutudur.

*Hörmətlə,*

***Aktam XAİTOV,***
***Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri***

# Baş prokuror Şərq İqtisadi Forumunda çıxış edib

Xəbər verildiyi kimi, Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vladivostok şəhərində işgüzar səfərdədir.




Sentyabrın 5-də nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin forum iştirakçılarını salamlayaraq tədbirin qlobal iqtisadi problemlərin həllinə öz töhfəsini verəcəyini və konstruktiv səmərəli dialoqa nümunə olacağını bildirib.

Daha sonra Kamran Əliyev "Rossiya 24" televiziya kanalına müsahibə verib.

Rusiya Baş Prokurorluğunun təşkilatçılığı ilə keçirilən biznes subyektlərinin hüquqlarının qorunmasına həsr olunmuş sessiyada çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursuna uyğun olaraq sahibkarlığın inkişafının dövlət siyasətinin əsas prioritetlərindən olduğu, aparılan islahatlar nəticəsində sahibkarlıq fəaliyyətinin qanunvericilik bazası və lazımi infrastrukturunun yaxşılaşdırıldığını qeyd edib.

30 illik erməni işğalından azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını qeyd edən baş prokuror, ölkəmizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyaların yatırılması üçün əlverişli biznes mühitinin yaradılmasından bəhs edib.

Kamran Əliyev ölkəmizdə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, həmçinin prokurorluğun müvafiq struktur qurumları tərəfindən sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərin maraqlarının qorunması sahəsində fəaliyyətindən danışıb. Baş prokuror cari ilin noyabrında dünyanın ən mötəbər beynəlxalq tədbiri olan COP29-un ölkəmizdə keçiriləcəyi barədə görüş iştirakçılarına məlumat verib.

Sessiya zamanı digər natiqlər çıxışlar ediblər, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində baş prokuror taylandlı və laoslu həmkarları ilə ikitərəfli görüşlər keçirib, əməkdaşlıq perspektivləri müzakirə edilib.

Nümayəndə heyətinin Rusiyaya işgüzar səfəri başa çatıb.

# Beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq ədalət mühakiməsinin səmərəliliyinin artmasına şərait yaradır

Sentyabrın 5-də ölkəmizdə səfərdə olan Beynəlxalq Hakimlər İttifaqının prezidenti Duro Sessanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məhkəmənin sədri İnam Kərimov Azərbaycanda aparılan məhkəmə-hüquq islahatları və Ali Məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verib. Beynəlxalq təşkilatlarla qarşılıqlı təcrübə mübadiləsinin daha da gücləndirilməsinin əsas prioritetlərdən biri olduğu, sıx əməkdaşlığın ədalət mühakiməsinin səmərəliliyinin artmasına şərait yaratdığı vurğulanıb. Qeyd edilib ki, həmin istiqamətdə Beynəlxalq Hakimlər İttifaqı ilə əməkdaşlığın gücləndirilməsi də mühüm əhəmiyyət daşıyır.

Nümayəndə heyətinin rəhbəri Duro Sessa ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, münasibətlərin inkişafına xüsusi diqqət yetirildiyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən sentyabrın 5-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ucar Gənclər Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, qəbul zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, mineral xammal, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

❖ ❖ ❖

Sentyabrın 5-də rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Masallı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Cəlilabad, Masallı, Yardımlı, Lənkəran, Lerik və Astara rayonları sakinləri ilə görüş zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq qurumlara göndərilməsi məqsədilə qeydiyyata alınıb.

***AZƏRTAC***

# *XRİTDX:* Azərbaycanın dövlət qurumlarına kiberhücumlar azalıb

Bu ilin yanvar-avqust aylarında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) dövlət qurumlarına 675 kiberhücum indikatoru (IOC) müəyyən edib.

AZƏRTAC XRİTDX-in Kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin yaydığı hesabata istinadla xəbər verir ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 faiz azdır. Belə ki, kiber təhdidlərin 340-ı daxili araşdırma, 335-i isə dövlət qurumlarından daxil olmuş insidentlərin araşdırılması əsasında müəyyən edilib və bloklanıb.

Təkcə bu ilin avqustunda 52 kiberhücum müəyyən olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə azdır. Hesabat dövründə "AzStateNet" şəbəkəsi üzrə 560,7 milyon zərərli keçid, son istifadəçilərdə quraşdırılan mərkəzi antivirus sistemi vasitəsilə 3 milyon 43 min 900, "Sandbox" mühafizə sistemi vasitəsilə isə 170 min 768 zərərverici tərkibli elektron sənəd blok edilib.



# Azərbaycan İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır

## İki ölkə arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir



"Azərbaycan-İtaliya əlaqələri daha da genişlənir. Dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və əlaqələrin şaxələnməsinə yol açır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında VI çağırış Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, İtaliya Azərbaycanın Avropaya açılan qapısıdır, bu baxımdan əlaqələrimizin dərinləşməsi ölkəmizin Avropa Birliyi ölkələrinə inteqrasiyasını sürətləndirir. Azərbaycan-İtaliya münasibətləri siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edir. Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 ildə İtaliya ölkəmizin ərazi bütövlüyünü dəstəkləmiş və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasının vacibliyini bildirməklə dəyişilməz mövqeyini ifadə etmişdi. O cümlədən 44 günlük Vətən müharibəsi dövründə də İtaliya özünün ədalətli mövqeyini dəyişməyərək Azərbaycanın suveren ərazilərinin bütövlüyünü dəstəklədiyini bəyan etmişdi: "Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində İtaliya Türkiyədən sonra ikinci yerdə dayanaraq bizimlə çiyin-çiyinə iştirak edir. Bu gün İtaliya şirkətləri elektrik stansiyalarının yenidən qurulmasında, işıqlandırma sistemlərinin, kənd təsərrüfatı müəssisələrinin yaradılmasında və digər sahələrdə fəaliyyət göstərirlər. Bu da Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma və bər-



pası prosesini sürətləndirir, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını tezləşdirir".

Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni xatırladan A.Badamov qeyd edib ki, bu sənəddə Azərbaycan və İtaliya bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyib: "İtaliya Azərbaycanın əsas iqtisadi tərəfdaşıdır. 2023-cü ildə Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsi 15,7 milyard dollar, o cümlədən idxalın həcmi 0,5 milyard, ixracın həcmi isə 15,2 milyard dollar təşkil edib. Bu ilin birinci yarımilliyində İtaliya ilə ticarət dövriyyəmiz 6,2 milyard dollar, o cümlədən idxalın həcmi 0,3 milyard, ixracın həcmi isə 5,9 milyard dollar olub".

Müsahibimiz vurğulayıb ki, Azərbaycanla İtaliya arasında enerji sahəsində əməkdaşlığın dərinləşməsi ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və Azərbaycana geosiyasi üstünlüklər qazandırır. Azərbaycan neftinin ən böyük alıcılarından biri olan İtaliyaya həm də TAP marşrutu vasitəsilə qaz ixrac olunmağa başlayıb. TAP kəmərinin İtaliyaya qədər uzanması digər Avropa ölkələrinə də qaz ixracımızın şaxələndirilməsinə yol açır.

A.Badamov qeyd edib ki, 2020-ci ilin İtaliyada "Azərbaycan ili" elan edilməsi ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Prezident İlham Əliyevin həmkarı Sercio Matterellanın dəvəti ilə İtaliyada işguzar səfərdə olması ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da dərinləşməsinə yol açacaq. Bu da münasibətlərin yeni mərhələyə keçməsinə impuls verəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İtaliya qəzeti Azərbaycan-İtaliya strateji əlaqələrindən yazıb




**İtaliyanın əsas mətbu orqanlarından olan "Formiche" qəzetində Azərbaycan-İtaliya münasibətlərindən bəhs edən geniş məqalə yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, yazıda bu iki strateji tərəfdaş ölkənin güclü ticarət əlaqələrinə malik olduğu bildirilir, yeni geosiyasi çağırışlar fonunda münasibətlərin xüsusi çəkisinin gücləndirilməsinin əhəmiyyəti vurğulanır. Diqqətə çatdırılır ki, Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan müxtəlifliyi təbliğ edir, fərqli mədəniyyətlərin və sivilizasiyaların dəyərlərini mənimsəyir. Bu amillər ona əsl körpü rolunu oynamağa imkan verir.

### Azərbaycanın rolu

İtaliyanı Mərkəzi Asiya ilə birləşdirən və çox mühüm coğrafi məkanda yerləşən Azərbaycan kimi əsas ölkə ilə münasibətlərdə təmsil olunan incə, lakin həlledici geosiyasi tel var: Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və Albaniya - onlar Avro-Aralıq dənizi və Qafqaz kimi iki tamamilə strateji kvadrantı təşkil edən ölkələrdir.

Materialda vurğulanır ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır, rəsmi Bakı isə Cənubi Qafqaz regionunda Romanın əsas ticarət tərəfdaşıdır. İki ölkə arasında möhkəm ticarət əlaqələri yeni geosiyasi çağırışlar fonunda bu regionda potensial təsirin xüsusi çəkisi ilə güclənir. Ölkələrimiz arasında güclü əlaqələrin olduğu, üç ay əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda İtaliyanın müdafiə naziri Quido Krosetto, bu ölkənin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli ilə görüşdüyü qeyd edilir.

Məqalədə həmçinin ölkəmizin noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına evsahibliyi edəcəyi vurğulanır. İtaliyanın bu beynəlxalq tədbirə xüsusi töhfəsini verəcəyi bildirilir.

### Bakı ilə Roma arasında əlaqələr

Yazıda keçən il "Ansaldo Energia" ilə "Azərenerji" arasında imzalanan və dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkətinin Azərbaycandakı yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcəyi diqqətə çatdırılır. Eyni zamanda İtaliyanın "Leonardo" şirkətinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki modernləşdirilməsi proqramı çərçivəsində Azərbaycana "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsi tədarük etdiyi bildirilir.

Vurğulanır ki, ikitərəfli əlaqələr nəinki müdafiə, eyni zamanda təhsil və mədəniyyət sahələrini də əhatə edir. Bakıda yerləşən İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair sazişlər imzalanıb.

### Enerji sahəsində əməkdaşlıq

Müəllif ölkəmizin İtaliyanın enerji təchizatına verdiyi töhfədən bəhs edir, Azərbaycanın "Şahdəniz 2" yatağından hasil olunan təbii qazını "köhnə qitəyə" nəql edən "Cənub qaz dəhlizi" layihəsinin Avropa hissəsi olan TAP boru kəmərinin avropalı tərəfdaşlar üçün "təhlükəsizlik yastığı" rolunu oynadığını vurğulayır. Qeyd edir ki, indiyədək TAP-la Avropaya təxminən 26 milyard kubmetr təbii qaz nəql edilib. TANAP boru kəməri ilə Türkiyə sərhədində birləşən TAP boru kəməri Yunanıstanın şimalına, Albaniyaya, daha sonra Adriatik dənizindən keçməklə İtaliyanın Apuliya regionu sahillərinə çatır. Qaz boru kəməri texniki nöqteyi-nəzərindən obyektiv və əsaslı töhfə olmaqla yanaşı, xəttin keçdiyi bütün ölkələrin maraqlarını birləşdirən siyasi infrastrukturu təmsil edir.

### COP29 və Mədəniyyətlərarası Dialoq Forumu

Yazıda vurğulanır ki, Azərbaycanın rolu enerji ilə məhdudlaşmır - onun fəaliyyəti noyabrda növbəti COP-un təşkili və mədəniyyətlərarası dialoq kimi iki proqram xətt üzrə davam edir. Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş qlobal təşəbbüs kimi 2008-ci ildə mühüm beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıqla başlatdığı "Bakı Prosesi" çərçivəsində bu il ölkə paytaxtında VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Bu, hökumətlər, beynəlxalq təşkilatlar, ekspertlər, alimlər, siyasətçilər və digərləri üçün bir-biri ilə ünsiyyət kontekstində mədəniyyətlərarası kommunikasiyaların inkişaf edən dinamikası və qlobal təhlükəsizlik üzrə mənalı müzakirələr aparmaq baxımından mühüm platformadır.

# Fransa insan haqları və demokratiya adına ləkədir

"Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycan əleyhinə növbəti bəyanatı, daha dəqiq desək, guya Azərbaycanda Fransa vətəndaşlarının heç bir faktiki və hüquqi əsas olmadan saxlanılması, əsassız yerə hədəfə alınması barədə iddiaları bu ölkənin Azərbaycan ilə münasibətlərini normallaşdırmaq niyyətində olmadığını bir daha göstərir. Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, ümumbəşəri dəyərlərə sadiqdir və bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi hədəfləyir. O cümlədən də Azərbaycan Fransa ilə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmağa çalışır".

VI çağırış Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ötən dövrdə Fransanın Azərbaycan əleyhinə qəti, dəyişməz və qəbuledilməz mövqe tutması, 30 il ərzində vasitəçilik pərdəsi ilə maskalanaraq regionda işğal və təcavüzün davamlılığına şərait yaratması, Azərbaycanın öz ərazilərini işğaldan və təcavüzdən qurtarmasından sonra anti-Azərbaycan mövqe tutaraq açıq şəkildə işğalı və separatizmi dəstəkləyən bəyanatlar verərək ölkəmizi hədəfə alması bu ölkənin ümumbəşəri niyyətlərə sadiq olmadığını və beynəlxalq hüququ heçə saydığını göstərir. Əvvəllər bu və ya digər formada gizli şəkildə Azərbaycan əleyhinə iş aparan Paris Azərbaycanın Vətən müharibəsindəki və antiterror tədbirlərindəki qələbəsindən sonra "ləyaqətsiz mübarizəsini" açıq müstəviyə çıxarmış, dəfələrlə müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı ittihamedici bəyanatlar səsləndirib, habelə ölkəmizin ətrafında təhdid və sanksiyalar çəmbəri formalaşdırmağa çalışmışdır.

"Azərbaycan cənab İlham Əliyevin qətiyyəti ilə Fransanın bütün təhdidlərini lazımi adekvat və sərt cavablar verməklə aradan qaldırıb və Paris faktiki olaraq Cənubi Qafqazdakı güc və nüfuzundan məhrum olub. Ardıcıl məğlubiyyət və Cənubi Qafqazda itirilən mövqelər Makron diktatura rejimini daha da azğınlaşdırıb. Fransa bütün mümkün vasitələrdən istifadə edərək Azərbaycanı qaralama kampaniyasına yeni mərhələdə start verib. Bu xüsusda özünü qlobal ombudsman kimi təqdim etməyə çalışan Fransa insan haqları və demokratiya pərdəsi altında yerli vətəndaş cəmiyyəti institutlarından, habelə beynəlxalq çərçivədə bu istiqamətdə fəaliyyət göstərən, əslində isə muzdlu terror təsisatlarından heç bir fərqi olmayan qlobal insan haqları təşkilatlarını da alətə çevirməyə cəhd edib və bir çox hallarda bunu bacarıb. Lakin Azərbaycanın bu proseslərə kifayət qədər aydın və həssas baxışla yanaşması, xüsusən cənab Prezidentin 2010-cu illərin əvvəllərindən etibarən vətəndaş cəmiyyəti institutları sahəsində qanunvericiliyi şəffaflaşdırması, bu sahədə fəaliyyətin, bu cəmiyyətlərin sağlam formada təşəkkül tapmasına maneə törətmədən bu



sektora nəzarəti gücləndirməsi Fransanı bölgədə yerli alətlərdən məhrum edib", - deyə o əlavə edib.

O xatırladıb ki, ötən ilin dekabrında Azərbaycan xüsusi xidmət orqanlarının həyata keçirdiyi tədbirlər nəticəsində Fransanın Şərqi Avropa, Orta Asiya, Cənubi Qafqaz və Yaxın Şərqi əhatələyən casus şəbəkəsi çökdürülüb, bu ölkədə hökumət böhranına bərabər ciddi problemlər yaşanıb və xüsusi xidmət orqanının aidiyyəti rəhbərliyi işdən çıxarılıb. Bu, eyni zamanda Fransanın Cənubi Qafqazda Prezident İlham Əliyev qarşısında növbəti məğlubiyyəti idi. Həmçinin bir il əvvəl Azərbaycanın öz ərazisində separatizmə son qoyması Fransanın daha bir təsir rıçağını heçə endirib və bu gün faktiki olaraq ölkəmiz bütün istiqamətlərdə təşəbbüsləri ələ almağı bacarıb. Xüsusən Qoşulmama Hərəkatına sədrliyi dövründə məhz cənab İlham Əliyevin təşəbbüsü ilə Fransanın dənizaşırı ərazilərdə və digər bölgələrdə müstəmləkə siyasəti açıq şəkildə ifşa edilərək həmin bölgələrin xalqlarının təməl hüquqlarının bərpası istiqamətində Bakı Təşəbbüs Qrupunun simasında ciddi fəaliyyətlərə start verilib. Bu, Fransanın tarixində yaşadığı ən ciddi beynəlxalq məğlubiyyətlərdən biridir. Paris Azərbaycanı Fransa vətəndaşlarına qarşı ayrı-seçkilikdə və fransızları hədəfə almaqda günahlandırmaqla, əslində, bizimlə münasibətlərini gərginləşdirmək və mövcud məğlubiyyəti ilə barışmaq niyyəti olmadığını göstərməklə bərabər, həm də bütün mümkün platformalarda özünün güc və imkanlarından qərəzli formada istifadə potensialını ortaya qoymuş oldu. Bu isə çox təhlükəli tendensiyadır, çünki Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünya idarəçiliyində rol alır və beynəlxalq hüququn aliliyinin təmin olunması və qorunmasında birbaşa məsuliyyət daşıyan dövlətdir. Əgər bu gün Fransa öz fəaliyyətini BMT-nin digər üzvünə münasibətdə qərəz və təhdid üzərində qurursa, işğalı və separatizmi dəstəkləyirsə, ədalətsiz və riyakar mövqe tutursa, artıq həmin dövlətin BMT Təhlükəsizlik Şurasının idarəçiliyində rol alması Azərbaycana deyil, bütövlükdə qlobal dəyərlərə təhdiddir və bu məsələ ən qısa zamanda müzakirəyə çıxarılmalı, Fransanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi fəaliyyətinin davam etdirilməsinin mümkünsüzlüyü bəyan olunmalıdır.

B.Məhərrəmov qeyd edib ki, Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da ifadə olunduğu kimi, hazırda Azərbaycanda iki fransız vətəndaşına münasibətdə aidiyyəti hüquqi təqib həyata keçirilir: "Onlardan biri Fransa vətəndaşı Martin Rian ötən il dekabr ayının 4-də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin casusluq maddəsi ilə konkret və təkzibedilməz şübhələr əsasında saxlanılıb və o da əməllərini etiraf edib. Digər fransız vətəndaşı isə Bakı metrosunda törətdiyi əmələ görə saxlanılıb və onun barəsində də aidiyyəti hüquqi tədbirlər kifayət qədər aydın formada həyata keçirilib. Konkret əməllərdə ittiham olunan şəxslərə münasibətdə onların fransız olmasına görə xüsusi üstünlük tələb edilməsi bütövlükdə insan haqları adına utancdır və Fransanın bərabərlik ideyalarına münasibətinin rüsvayçı göstəricisidir. Azərbaycan Respublikasında cinayət təqibi tam, hərtərəfli və qərəzsiz şəkildə aparılmaqla bərabər yanaşmaya əsaslanır və kiminsə hansısa digər ölkənin, o cümlədən Fransanın vətəndaşı olması cinayət təqibi orqanları qarşısında hər hansı xüsusi öhdəlik, yaxud xüsusi güzəşt məcburiyyəti yaratmır və yarada da bilməz".

Müsahibimiz vurğulayıb ki, Azərbaycanda hüquq-mühafizə sisteminə, məhkəmə hakimiyyətinə, habelə insan hüquqlarının təmininə dair "dərs keçməyə" çalışan Fransa hakimiyyəti ilk növbədə fransızlara münasibətdə ayrı-seçkilik tələbinin fonunda özünün demokratiyaya, insan haqlarına baxışını gözdən keçirməlidir. Dünyanın dörd bir yanında özünün müstəmləkəsi olan xalqlara münasibətdə həyata keçirdiyi təqib, çoxsaylı cinayətlər fonunda Fransa hökuməti anlamalıdır ki, onun nə Azərbaycanda, nə də digər bir dövlətdə məhkəmə hakimiyyəti, yaxud ədalət mühakiməsi barədə danışmaq, bəyanat vermək, yaxud "dərs keçmək" kimi bir haqqı var. Fransa özü faktiki olaraq dünyada insan haqları və demokratiya adına ləkədir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 382 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyun tarixli 112 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli və 17 iyul tarixli 342 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7204 10 000 0, 7204 21 100 0, 7204 21 900 0, 7204 29 000 0, 7204 30 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "7" rəqəmi "500" rəqəmləri ilə əvəz edilsin;

1.2. 7204 41 100 0, 7204 41 910 0, 7204 41 990 0, 7204 49 100 0, 7204 49 300 0, 7204 49 900 0, 7204 50 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5" rəqəmi "500" rəqəmləri ilə əvəz edilsin;

1.3. 7404 00 100 0, 7404 00 910 0, 7404 00 990 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq - 15 ABŞ dolları, 31.12.2024-cü il tarixinədək - 10 %, lakin 1000 kq-a 300 ABŞ dollarından az olmamaqla*" sözləri "50%, lakin 1000 kq-a 4000 ABŞ dollarından az olmamaqla*" sözləri ilə əvəz edilsin;

1.4. 7503 00 100 0, 7503 00 900 0, 8101 97 000 0, 8102 97 000 0, 8103 30 000 0, 8104 20 000 0, 8105 30 000 0, 8108 30 000 0, 8109 31 000 0, 8109 39 000 0, 8110 20 000 0, 8111 00 190 0, 8112 13 0000, 8112 22 000 0, 8112 52 000 0, 8112 61 000 0, 8112 92 210 0, 8113 00 400 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununa "0" rəqəmindən sonra "(50%*)" sözləri əlavə edilsin;

1.5. 7602 00 110 0, 7602 00 190 0, 7602 00 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq - 15 ABŞ dolları*" sözləri və 7802 00 000 0, 7902 00 000 0, 8002 00 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq 15 ABŞ dolları*" sözləri "50%, lakin 1000 kq-a 1000 ABŞ dollarından az olmamaqla*" sözləri ilə əvəz edilsin;

1.6. 8106 90 000 0 alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8106 90 000 | - digərləri | | |
| 8106 90 000 1 | - - tullantılar və qırıntılar | - | 0<br>(50%*) |
| 8106 90 000 9 | - - digərləri | - | 0 |

1.7. 8112 31 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8112 31 000 | - - emal olunmamış; tullantılar və qırıntılar toz | | |
| 8112 31 000 1 | - - - tullantılar və qırıntılar | - | 0<br>(50%*) |
| 8112 31 000 9 | - - - digərləri | - | 0 |

1.8. 8112 41 000 0 alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8112 41 000 | - - emal olunmamış; tullantılar və qırıntılar toz | | |
| 8112 41 000 1 | - - - tullantılar və qırıntılar | - | 0<br>(50%*) |
| 8112 41 000 9 | - - - digərləri | - | 0 |

1.9. "QRUP 75"in və "QRUP 81"in cədvəllərindən sonra hər iki halda aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

**"Qeyd.**

Bu mal qrupuna daxil olan alt yarımmövqelərin 4-cü sütununda qeyd edilmiş ulduz işarəsi ixrac gömrük rüsumlarının dərəcələrini göstərir.".

2. Bu Qərar dərc edildiyi gündən 60 gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 386 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 67 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 67 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382 (Cild I) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nin "Dövlət orqanının adı" sütunu üzrə 37-ci hissədə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 336 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd ləğv edilsin;

2.2. aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

| | |
|---|---|
| **6.** | **Məhkəmə-Hüquq Şurası** |
| 6.1. | "Elektron məhkəmə" informasiya sistemi |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 491 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1826 (Cild I) ilə təsdiq edilmiş "İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri"nin "İnformasiya resursları dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan dövlət orqanlarının (qurumlarının) adı" sütunu üzrə 3-cü hissədə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 389 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## "Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 383 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## "İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 384 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 noyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 may tarixli 70 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 noyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1074 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nın "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin kursantlarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 2-1 nömrəli norması"nın adında "Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin" sözləri "Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 385 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda və 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında

"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 may tarixli 247 nömrəli və 17 iyul tarixli 341 nömrəli qərarları) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 40-cı hissəsində "Yaşayış binalarının, o cümlədən mənzillərin" sözləri "Tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 336) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nın 1.5-ci bəndində "İstehlakçıların STTSAS-a qoşulması üçün texniki şərtlərin verilməsi və" sözləri "Tikinti obyektlərinin STTSAS-a" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 388 QƏRAR Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında

"Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1064 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın III bölməsinə aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 390 QƏRAR Bakı şəhəri, 4 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1144-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 779 (Cild I) ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nın 1.6-cı bəndində "və ya beynəlxalq" sözləri ", xüsusi mühafizə və ya" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 391 **QƏRAR** Bakı şəhəri, 4 sentyabr 2024-cü il

## "Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği"nin təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 65 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsi İlə təsdiq edilən Qaydada göstərilən maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 392 **QƏRAR** Bakı şəhəri, 4 sentyabr 2024-cü il

## "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 47 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Cəza çəkmədən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 76 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 285 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Cəza çəkmədən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası" üzrə:

1.2.1. adında "ərzaq" sözü "qida" sözü ilə, 5-ci və 6-cı hissələrdə "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

1.2.2. birinci abzasda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2.3. 2-ci hissənin birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə, ikinci cümləsində "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin.

2. "İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 22 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 89) adından, ikinci abzasından, həmin Qərarla təsdiq edilmiş "İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı"nın adından, "Qeydlər" hissəsinin 1-ci abzasından (hər iki halda) və 2-ci abzasından "(ərzaq)" sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 387 **QƏRAR** Bakı şəhəri, 3 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması ilə bağlı fəaliyyətin optimallaşdırılması, habelə bu sahədə yaranmış problemlərin və uyğunsuzluqların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583) ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2.4-cü yarımbənddən "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində" sözləri çıxarılsın.

2. 2.6-cı bənddən "və yük" sözləri çıxarılsın, "sadələşdirilmiş vergi" sözlərindən sonra ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları" sözləri, birinci halda "asılı olmayaraq" sözlərindən sonra "geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir" sözləri əlavə edilsin və həmin bənddə hər iki halda "və məcburi dövlət sosial" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi" sözləri ilə əvəz edilsin.

3. 4-cü hissə üzrə:

3.1. 4.2.2-ci və 4.3.2-ci yarımbəndlər ləğv edilsin;

3.2. 4.2.4-cü və 4.3.4-cü yarımbəndlərə "yazılı" sözündən sonra "və ya Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış "Vahid elektron lövhə" bölməsi vasitəsilə tərtib edilmiş elektron" sözləri əlavə edilsin;

3.3. 4.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.4. Vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə yol verilmir. Məcburi dövlət sosial sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin məcburi dövlət sosial sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, işsizlikdən sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin işsizlikdən sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə yol verilmir.";

3.4. 4.4-1-ci bənd ləğv edilsin;

3.5. 4.7-ci bənddə "və 4.2.2-ci yarımbəndləri" və "və 4.3.2-ci yarımbəndləri" sözləri "yarımbəndi" sözü ilə əvəz edilsin;

3.6. 4.11-ci bəndin birinci cümləsində "ərizənin və şəxsi vərəqədən çıxarışın surətləri" sözləri "yazılı ərizənin surəti və ya bu Qaydaların 4.2.4-cü və 4.3.4-cü yarımbəndlərinə uyğun olaraq tərtib edilmiş elektron ərizənin, habelə şəxsi vərəqədən çıxarışın "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələbinə uyğun surətləri" sözləri ilə əvəz edilsin, həmin cümləyə "ödəmənin" sözündən sonra "müvafiq olaraq" sözləri əlavə olunsun və "müvafiq sosial təminatı və müdafiəni həyata keçirən orqana" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Funduna (bundan sonra - Dövlət Sosial Müdafiə Fondu), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə (bundan sonra - Dövlət Məşğulluq Agentliyi)" sözləri ilə əvəz edilsin;

3.7. 4. 12-ci bənddən "və işsizlikdən sığorta" sözləri çıxarılsın və həmin bənddə "isə sosial təminatı və müdafiəni həyata keçirən orqanların" sözləri "Dövlət Sosial Müdafiə Fondunun, işsizlikdən sığorta haqlarının, hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının qaytarılmasına münasibətdə Dövlət Məşğulluq Agentliyinin" sözləri ilə əvəz edilsin;

3.8. 4. 14-cü bənddə "və 4.2.2-ci yarımbəndləri" və "və 4.3.2-ci yarımbəndləri" sözləri "yarımbəndi" sözü ilə, "sosial təminatı və müdafiəni həyata keçirən orqana" sözləri "Dövlət Sosial Müdafiə Fonduna, Dövlət Məşğulluq Agentliyinə" sözləri ilə əvəz edilsin.

4. 5-ci hissə üzrə:

4.1. adında "sosial təminatı və müdafiəni həyata keçirən orqanların" sözləri "Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Məşğulluq Agentliyinin" sözləri ilə əvəz edilsin;

4.2. 5.1-ci bənddə "sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin;

4.3. 5.3-cü bəndin ikinci cümləsində "Sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" və "sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin;

4.4. 5.4-cü bəndin birinci cümləsinə "orqanlara" sözündən sonra "vergilər üzrə" sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsində "Sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 393 **QƏRAR** Bakı şəhəri, 4 sentyabr 2024-cü il

## "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 4 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 551 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.7-ci bəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"1.7. Beynəlxalq Dəniz Təşkilatı (bundan sonra - BDT) nömrəsi - gəmiyə Beynəlxalq Dəniz Təşkilatı tərəfindən verilən identifikasiya nömrəsi.";

1.2. 2.8.6-cı yarımbənddən "(İMO)" akronimi çıxarılsın;

1.3. 6.1-ci bənd, 6.1.1-ci və 6.1.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"6.1. Aşağıdakı hallarda gəmi Dövlət gəmi reyestrindən və ya berbout-çarter reyestrindən mütləq çıxarılmalıdır:

6.1.1. Dövlət gəmi reyestrində qeydiyyata alınmış gəminin mülkiyyətçisinin və ya berbout-çarter reyestrində qeydiyyata alınmış gəminin fraxtedəninin ərizəsi (səbəbi göstərilməklə) əsasında;";

"6.1.7. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.";

1.4. 6.1.4-cü yarımbənddə "məhv olduqda" sözləri "istismara yararsız hala düşdükdə" sözləri ilə əvəz edilsin;

1.5. həmin Qaydalara 1 nömrəli əlavənin 8-ci hissəsindən "identifikasiya" sözü çıxarılsın;

1.6. həmin Qaydalara 2 nömrəli əlavənin 8-ci hissəsindən "identifikasiya" sözü çıxarılsın;

1.7. həmin Qaydalara 6 nömrəli əlavə üzrə:

1.7.1. 31.4-cü bənddə "şəhadətnaməsi (sərnişin gəmisi üçün)" sözləri "gəmisinin təhlükəsizlik üzrə şəhadətnaməsi" sözləri ilə əvəz edilsin;

1.7.2. 31.6-cı bənddə "çeşidi" sözü "nişanı" sözü ilə əvəz edilsin;

1.7.3. 31.7-ci bənddə "Gəmi heyətinin minimal" sözləri "Minimum heyət" sözləri ilə əvəz edilsin;

1.7.4. 31.8-ci bənddə "çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə" sözləri "çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə" sözləri ilə əvəz edilsin;

1.7.5. 31.10-cu bənd ləğv edilsin.

2. "Dəniz limanı kapitanı haqqında Əsasnamə"nin, "Dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılması Qaydaları"nın və "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 439 (Cild I); 2024, № 3, maddə 328) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dəniz limanı kapitanı haqqında Əsasnamə" üzrə:

2.1.1. 1.2-ci bəndə və 2.2.1-ci yarımbəndə "liman akvatori-yasında" sözlərindən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin;

2.1.2. 2.2.2-ci və 2.3.1-ci yarımbəndlərə ismin müvafiq hallarında "liman" sözündən sonra ismin müvafiq hallarında "və ya dəniz əməliyyatları bazası" sözləri əlavə edilsin;

2.1.3. 2.2.8-ci yarımbəndin birinci cümləsinə "yaxınlığında" sözündən sonra, ikinci cümləsinə isə "akvatoriyasında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin;

2.1.4. 2.2.9-cu yarımbəndə "yaxınlığında" sözündən sonra "və ya dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin;

2.1.5. 2.4-cü bəndə "çıxmasını" sözündən sonra "Agentlik ilə razılaşdırmaqla" sözləri əlavə edilsin;

2.1.6. 2.4.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4.9-cu yarımbənd əlavə edilsin:

"2.4.9. hidrometeoroloji və naviqasiya şəraitinin dəyişməsi gəminin limandan çıxmasına maneə törətdikdə.";

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılması Qaydaları" üzrə:

2.2.1. 1.7-ci bəndə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

2.2.2. 2.3.1-ci, 3.6.1-ci və 3.20.7-ci yarımbəndlərdə "BDT/İMO" akronimləri "Beynəlxalq Dəniz Təşkilatı" sözləri ilə əvəz edilsin;

2.2.3. 3.7-ci bəndə "limanına" sözündən sonra "və ya dəniz əməliyyatları bazasına" sözləri əlavə edilsin;

2.2.4. 3.20.3-cü (hər iki halda) və 3.20.7-ci yarımbəndlərə ismin müvafiq hallarında "liman" sözündən sonra ismin müvafiq hallarında "və ya dəniz əməliyyatları bazası" sözləri əlavə edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə" üzrə:

2.3.1. 3.2-ci və 6.5-ci bəndlərə, 3.3.1-ci yarımbəndə (hər iki halda) "limanlarına" sözündən sonra, 6-cı hissənin adına "limanlara" sözündən sonra "və ya dəniz əməliyyatları bazalarına" sözləri əlavə edilsin;

2.3.2. 4.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.4. minimum heyət tərkibi haqqında Şəhadətnamə;";

2.3.3. 4.1.11-ci yarımbənddə "çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə" sözləri "çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə" sözləri ilə əvəz edilsin;

2.3.4. 4.1.18-ci yarımbənddə "təhlükəsizliyi haqqında şəhadətnamə" sözləri "təhlükəsizlik üzrə şəhadətnaməsi" sözləri ilə əvəz edilsin;

2.3.5. 4.1.20-ci yarımbənd ləğv edilsin;

2.3.6. 5.3.1-ci yarımbənddə "heyətin minimum" sözləri "minimum heyət" sözləri ilə əvəz edilsin;

2.3.7. 5.3.4-cü yarımbənddə "sertifikatları" sözü "şəhadətnamələri" sözü ilə əvəz edilsin;

2.3.8. 5.5.1-ci, 5.5.2-ci (hər iki halda) və 6.5.3-cü yarımbəndlərə ismin müvafiq hallarında "liman" sözündən sonra ismin müvafiq hallarında "və ya dəniz əməliyyatları bazası" sözləri əlavə edilsin;

2.3.9. 6.4-cü bənddə "limanadək" sözü "limana və ya dəniz əməliyyatları bazasınadək" sözləri ilə əvəz edilsin;

2.3.10. 6.5.3-cü yarımbəndə (üçüncü halda) "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1211 (Cild I); 2024, № 1, maddə 74, № 3, maddə 328) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Bu Qaydaların müddəaları dəniz əməliyyatları bazalarına da şamil edilir və onlar tərəfindən bu Qaydaların tələblərinə riayət olunmasını Agentlik təmin edir.";

3.2. 5.9.1-ci yarımbənddə "Təşkilatının" sözü "Təşkilatı" sözü ilə əvəz edilsin;

3.3. 6.6.1-ci yarımbənddə "identifikasiya" sözü "Beynəlxalq Dəniz Təşkilatı" sözləri ilə əvəz edilsin;

3.4. 8.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.11. Neft məhsulları ilə yüklənmiş gəminin kapitanı neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamənin mövcudluğu barədə təyinat limanına məlumat verməlidir, əks halda təyinat limanı həmin gəmini qəbul etməkdən imtina edir.";

3.5. 9.6.3-cü yarımbənddə "gəmi heyətinin tərkibi haqqında şəhadətnamə" sözləri "minimum heyət tərkibi haqqında Şəhadətnamə" sözləri ilə əvəz edilsin;

3.6. 9.6.6-cı və 10.9.8-ci yarımbəndlərdən "beynəlxalq" sözü çıxarılsın;

3.7. 9.6.7-ci yarımbənddə "təhlükəsizliyi haqqında şəhadətnamə" sözləri "təhlükəsizlik üzrə şəhadətnaməsi" sözləri ilə əvəz edilsin;

3.8. 9.6.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.6.12. neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə;";

3.9. 10.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"10.3. Liman kapitanının aşağıdakı hallarda Agentlik ilə razılaşdırmaqla gəmiyə dəniz limanından çıxmağa icazə verməkdən imtina etmək hüququ vardır:";

3.10. 10.3.2-ci yarımbəndə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

3.11. 10.3.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 10.3.7-ci yarımbənd əlavə edilsin:

"10.3.7. hidrometeoroloji və naviqasiya şəraitinin dəyişməsi gəminin limandan çıxmasına maneə törətdikdə.";

3.12. 10.9.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"10.9.9. sərnişin gəmisinin təhlükəsizlik üzrə şəhadətnaməsini;";

3.13. 10.9.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"10.9.14. neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə;";

3.14. 10.9.15-ci yarımbənd və 10.24-cü bənd ləğv edilsin;

3.15. 10.9.16-cı yarımbənddə "gəmi heyətinin tərkibi haqqında şəhadətnaməni" sözləri "minimum heyət tərkibi haqqında Şəhadətnaməni" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 avqust tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1443 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.4-cü yarımbənddə "şirkətə" sözü "şirkətin" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "tərəfindən verilən identifikasiya" sözləri çıxarılsın;

4.2. 2.2.10-cu yarımbənddə "şirkətə BDT tərəfindən verilən identifikasiya" sözləri "şirkətin BDT" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il sentyabrın 5-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın avqustun 29-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki hüququnun mübahisələndirilməsi iddiası ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılan müraciətlər Komissiya üzvləri tərəfindən geniş müzakirə edilib və Seçki Məcəlləsinin tələblərinə uyğun, əsaslandırılmış qərarlar qəbul olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçiləri və media mənsublarının iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

## QƏRAR № 37/174

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 29 avqust tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 29 avqust tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/175

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 39 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Əziz Fatehoviç Əzizov 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə səsvermənin nəticələri haqqında bir neçə məntəqə seçki komissiyası protokolunun surətinin ona verilmədiyini, həmçinin səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 40.2-ci maddəsinə əsasən, müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri, yaxud vəkil edilmiş şəxsləri səsvermənin nəticələri haqqında protokolların surətini almaq hüququna malikdirlər. Seçki Məcəlləsinin 100.11-ci maddəsinin tələbinə görə, buna hüququ olan şəxslərə verilən seçki komissiyalarının protokollarının surətlərini onların tələbi ilə komissiyanın sədri və ya katibi təsdiq etməlidir.

Göstərilənlərlə müəyyən edilir ki, 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Ə.F.Əzizovun şikayəti həmin hissədə əsaslı olduğundan təmin edilməlidir.

Bundan başqa, Seçki Məcəlləsinin tələbinə görə, səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 40.2-ci, 100.11-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Əziz Fatehoviç Əzizovun 4 sentyabr 2024-cü il tarixli 39 saylı müraciəti protokolların surətlərinin verilməməsi hissəsində əsaslı olduğundan təmin olunsun, səsvermənin nəticələri haqqında müvafiq məntəqə seçki komissiyaları protokollarının surətlərinin namizədə verilməsi həmin dairə seçki komissiyası tərəfindən təmin edilsin, digər hissədə isə aidiyyəti üzrə araşdırılması üçün qeyd edilən seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/178

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 57 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 71 saylı Cəlilabad şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Azər Əbülfəz oğlu Əsgərov 2024-cü il sentyabrın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 71 saylı Cəlilabad şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Azər Əbülfəz oğlu Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 57 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/177

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 53 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Rəna Xanəlibəyli 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü 23 saylı Nəsimi - Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Rəna Xanəlibəylinin 2024-cü il 4 sentyabr tarixli 53 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 23 saylı Nəsimi - Səbail seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/176

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 48 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 22 saylı Nəsimi - Yasamal seçki dairəsi üzrə qeydə alınmış namizəd Cahandar Cahangir oğlu İsmayılov 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 22 saylı Nəsimi - Yasamal seçki dairəsi üzrə qeydə alınmış namizəd Cahandar Cahangir oğlu İsmayılovun 2024-cü il 4 sentyabr tarixli 48 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/179

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 51 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Yasəmən Tağı qızı Mahmudova 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Yasəmən Tağı qızı Mahmudovanın 4 sentyabr 2024-cü il tarixli 51 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/188

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 55 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Elsa Eldar qızı Hüseynova 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü 23 saylı Nəsimi - Səbail seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Elsa Eldar qızı Hüseynovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 55 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 23 saylı Nəsimi - Səbail seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*05.09.2024*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## QƏRAR № 37/180

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 50 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 78 saylı Lənkəran kənd seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əzizxan İman oğlu Əzizov və Tural Səxavət oğlu Quluzadə 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edilərək səsvermə günü həmin seçki dairəsi üzrə bir sıra seçki məntəqələrində seçki qanunvericiliyinin tələblərinin pozulduğunu iddia edərək, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 78 saylı Lənkəran kənd seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əzizxan İman oğlu Əzizov və Tural Səxavət oğlu Quluzadənin 4 sentyabr 2024-cü il tarixli 50 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/181

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 52 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Ülviyyə Məmməd qızı Şükürova 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Ülviyyə Məmməd qızı Şükürovanın 4 sentyabr 2024-cü il tarixli 52 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/182

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 47 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Razim Malikəjdər oğlu Əmiraslanlı 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Razim Malikəjdər oğlu Əmiraslanlının 2024-cü il 4 sentyabr tarixli 47 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/189

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 59 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Eldar İsmayıl oğlu İsmayılov 2024-cü il sentyabrın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edilərək səsvermə günü həmin seçki dairəsinin məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların aradan qaldırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Eldar İsmayıl oğlu İsmayılovun 5 sentyabr 2024-cü il tarixli 59 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/187

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 46 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (bundan sonra - Milli Məclis) növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Sərdar Əbülfət oğlu İsmayılov 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Sərdar Əbülfət oğlu İsmayılovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 46 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/183

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 56 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 94 saylı Ucar seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Zakir Ağaəli oğlu İsmayıl 5 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia edərək, dairə seçki komissiyasının protokolunun surətinin ona verilmədiyini bildirmiş və həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, səsvermə günü seçki məntəqələrində iddia olunan pozuntular ilə bağlı hissədə şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin həmin hissədə geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Müraciət dairə seçki komissiyasının protokolunun verilmədiyi hissəsində araşdırılmış və müəyyən edilmişdir ki, verilmədiyi iddia edilən dairə seçki komissiyasının protokolunun surəti namizəd tərəfindən şikayətə əlavə edilmişdir. Həmçinin 94 saylı Ucar seçki dairəsi dairə seçki komissiyası tərəfindən təqdim edilmiş arayışa əsasən, protokolun təsdiq edilmiş surəti poçt vasitəsilə namizəd Z.A.İsmayılın ünvanına göndərilmişdir.

Beləliklə, protokolun surətinin namizədə verilməsi dairə seçki komissiyası tərəfindən təmin edildiyindən, müraciət həmin hissədə əsassız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 94 saylı Ucar seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Zakir Ağaəli oğlu İsmayılın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 56 saylı müraciəti seçki məntəqələrində iddia olunan pozuntularla bağlı hissədə qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin, dairə seçki komissiyasının protokolununun surətinin ona verilməməsi hissəsində isə təmin edildiyindən müraciət əsassız hesab edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/184

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 49 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər - Ağdərə - Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Qələndər Şəmil oğlu Muxtarlı 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər - Ağdərə - Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Qələndər Şəmil oğlu Muxtarlının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 49 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/185

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 58 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 72 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Rahim Adış oğlu Axundov 2024-cü il sentyabrın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 72 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Rahim Adış oğlu Axundovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 58 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*

## QƏRAR № 37/186

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 54 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Solmaz Özgüvən 2024-cü il sentyabrın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü 23 saylı Nəsimi - Səbail seçki dairəsinin 30 saylı seçki məntəqəsində qanun pozuntularının baş verdiyini iddia etmiş və bu pozuntuların ciddi şəkildə araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Solmaz Özgüvənin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 54 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 23 saylı Nəsimi - Səbail seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*05.09.2024*




# Şuşaya daha 102 nəfər qayıtdı












**Böyük qayıdışın Şuşa salnaməsi davam edir. Dünən Şuşa şəhəri növbəti qayıdış karvanını qarşılayıb. Bu mərhələdə şəhərə respublikanın müxtəlif ərazilərində məskunlaşmış 30 ailə - 102 nəfər köçürülüb. Şuşada artıq 177 ailənin, yəni 672 nəfərin daimi məskunlaşması təmin edilib.**





Şuşalılar uzun illərdir həsrətini çəkdikləri dədə-baba torpaqlarına sevinc və qürur hissi ilə qayıdırlar. Şəhərdə sakinlərin rifahının yüksəldilməsi istiqamətində mühüm tədbirlər görülüb, insanların rahat yaşaması və işləməsi üçün bütün lazımi şəraitlə təmin edilməsinə xüsusi diqqət yetirilib. Müasir şəhərsalma qaydalarına uyğun plan əsasında bərpa edilən şəhərin yeni yaşayış binaları ənənəvi memarlıq üslubunda inşa olunub.

Tarixi, mədəni və dini abidələri ilə zəngin olan Qarabağ və Şərqi Zəngəzur 30 ilə yaxın davam edən işğal dövründə darmadağın edilib. Təkcə Şuşada 8 muzey, 31 kitabxana, 13 məscid, 17 klub, 8 mədəniyyət evi dağıdılaraq viran qoyulub. Şəhərdə aparılan bərpa və yenidənqurma işlərində çoxsaylı layihələr həyata keçirilib, işğal dövründə vandalizmə məruz qalan tarixi mədəni abidələr, tikililər bərpa edilib və proses davam edir.

"Böyük qayıdış" proqramının icrası çərçivəsində bu günə qədər 8 mindən çox keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Qürurverici haldır ki, artıq 2066 ailə - 8003 nəfər öz istəyilə əzəli yurdlarına qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 552 ailə (2031 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 177 ailə (672 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## *Şuşaya qayıdan sakin:*

## "30 yaşımda çıxarıldığım doğma yurduma 65 yaşımda qayıdıram"

**"30 yaşımda çıxarıldığım doğma yurduma 65 yaşımda qayıdıram. Şükür ki, bu günləri də görmək bizə nəsib oldu".**




AZƏRTAC xəbər verir ki, bunu Şuşa şəhərinə köç edən keçmiş məcburi köçkün Gültəkin Kərimova söyləyib.

Ağır köçkünlük həyatından bəhs edən Şuşa sakini bu cür şəraiti yaratdığına görə dövlət başçısına minnətdarlığını bildirib: "Mən Şuşada müəllim işləmişəm. O dəhşətli gündən sonra məcburi köçkün həyatımızı Bakıda Bilgəh qəsəbəsində yerləşən pansionatda yaşamışıq. Sevinirəm ki, öz doğma yurduma qayıdıram. Kədərlənirəm ki, bu illər ərzində doğmalarımızı itirdik, şəhidlər verdik. Şuşanı görmək arzusu ilə doğmalarımız həyatdan köçdülər.

Bu günləri bizə yaşatdığı üçün Ali Baş Komandanımıza, müzəffər Ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!"

## *Şuşa sakini:*

## "Sözlə ifadə olunmayan xoş hisslər keçiririk"

**"Sözlə ifadə olunmayan xoş hisslər keçiririk. Deyiləcək sözlərimiz həddən artıqdır və çox xoşdur. Ən böyük istəyi gerçəkləşən insan necə olmalıdır?!"**




AZƏRTAC xəbər verir ki, bu fikirləri bu gün Şuşa şəhərinə köç edən Ləman Qasımova bildirib.

Sakin ona bu şəraiti yaradanlara öz təşəkkürünü bildirib: "Hər kəsə - bu işdə əməyi olan bütün insanlara, qurumlara minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, ailələrinə səbir versin. Qarşılarında baş əyirəm. Qazilərimizə sağlıq arzu edirəm. Bir də acı çəkməsinlər. Ali Baş Komandana tanıdığım bütün məcburi köçkünlərin adından təşəkkürümü bildirirəm, var olsun", - deyə L.Qasımova qeyd edib.

## *Keçmiş məcburi köçkün:*

## "İllərdir həsrətində olduğum gün gəlib çatdı"

**"Bu gün çox sevindirici gündür. İllərdir həsrətində olduğum gün gəlib çatdı. Şükürlər olsun bu günə. Elimiz hər zaman bu cür şənliklərə şahid olsun".**

AZƏRTAC xəbər verir ki, bu sözləri bu gün Şuşa şəhərinə qayıdan keçmiş məcburi köçkün Sevda Həsənova söyləyib. Şuşalı sakin bu gün üçün Prezidentə minnətdarlığını bildirib, şəhidlərə rəhmət və qazilərə cansağlığı arzu edib. "Uzun illərin həsrətinin bitməyinə səbəbkar olan Ali Baş Komandana təşəkkür edirəm, şəhidlərimizin ruhları şad olsun, qazilərə Allah şəfa versin", - deyə o vurğulayıb.



*Zəfər fədailəri*

# Haramı düzünün qartalı

## Ulu Öndər Heydər Əliyev əsgər Şamil Cəbrayılovun qeyri-adi qəhrəmanlığını "Azərbaycan Bayrağı" ordeni ilə mükafatlandırmışdı



**Həyatda baş verən hadisələri, ötüb arxada qalmış yaşananları fikir süzgəcindən keçirə-keçirə düşünürük ki, hər insan ömrü vərəqlənməmiş, oxunmamış bir kitabdır. İllər onun hissələri, aylar fəsilləri, günlər isə vərəqləridir. Bu vərəqlərdə saatlar, dəqiqələr və anlar əbədi olaraq həkk olunub. Xatirələrlə dolub-daşan ömür kitabı hamı üçün əzizdir. Onu qarşımıza qoyub vərəqləyən kimi ötən günlər gözlərimiz önündə canlanır. O günləri tez-tez yada salır, heç vaxt unutmuruq. 1993-cü ilin dekabrında cəbhə bölgəsində, ön xətdə yaşadığımız günlər də ömrümüzün unudulmaz səhifələrindən biridir.**



### Qarabağ savaşının qanlı izləri

...Soyuq dekabr ayının ikinci ongünlüyü idi. Beyləqan-Füzuli istiqamətinə ezam olunmuşduq. Rayonun avtovağzalına günortaya yaxın çatdıq. Küçələr doğma ocaqlarından didərgin düşmüş qaçqınlarla doluydu. Hara addım atırdıqsa, orada köçkün yükləri daşıyan maşınları görürdük...

Ertəsi gün - dekabrın 14-də səhər ertədən yüksəkrütbəli artilleriyaçı zabitlərlə birlikdə ön xəttə yola düşdük. Ucsuz-bucaqsız Haramı düzünü ilk dəfəydi görürdük. Yollar, cığırlar, elə də hündür olmayan təpələr bir-birinə çox oxşayırdı. Sanki bütün bunlar bir rəssamın fırçasından çıxmış eyni tablolar idi. Bu ərazilərə yaxından bələd olmayanlar lap günün günorta çağı tez bir zamanda azıb, yollarını səhv sala bilərdilər.

Haramının hər addımında Qarabağ müharibəsinin qanlı izləri qalmışdı. Vurulub yandırılmış düşmən texnikaları, dərin səngərlər, ətrafa səpələnmiş müxtəlif ölçülü güllə və mərmi gilizləri ərazidə gərgin döyüşlərin getdiyindən xəbər verirdi. Söhbət zamanı artilleriyaçılardan öyrəndik ki, ötən gün gedən əməliyyatda bir neçə zirehli texnikası və xeyli canlı qüvvəsi məhv edilən düşmən geri çəkilmişdi. Haramı düzünün xeyli hissəsi erməni işğalçılarından azad olunmuşdu. Dünən dişlərini qıcayıb Beyləqan üzərinə hücum etməyə cəhd göstərən qəsbkarların burunları yaxşıca ovulmuşdu. Artıq Qarabağ müharibəsində tarixi dönüş yaranmışdı.

### 25 metrlik məsafədən düşmənin 2 tankını vuran əsgər

Barıt qoxulu mövqelərə çatan kimi vaxt itirmədən səngərləri gəzib döyüşlərdə fərqlənən, igidliklə vuruşan zabit və əsgərlərlə görüşüb söhbət etdik. Komandirlər döyüşdə igidlik göstərmiş əsgərləri bir-bir bizə təqdim edirdilər. 25 metrlik məsafədən ermənilərin iki tankını və xeyli canlı qüvvəsini məhv etmiş Cəbrayılov Şamil Əhliman oğlu da cəsur döyüşçülərin sırasında idi. Hiss olunurdu ki, bədəncə arıq, boyca çox da hündür olmayan bu əsgərin sinəsində qəhrəmanlığa təşnə olan məğrur ürək döyünür. Əsgər Şamil Cəbrayılovun vurduğu tanklardan biri zədələndikdən sonra geri dönüb döyüş meydanından uzaqlaşmağa çalışmışdı. Amma igid döyüşçü buna imkan verməmiş, növbəti mərmi ilə zirehli texnikanı vurub partlatmışdı.

Şamilin döyüş yolu ilə qısa tanışlıqdan sonra onun vurduğu zirehli texnikaların yanında şəklini çəkmək istədik. Amma bu, mümkün olmadı. Səngərdən çıxıb bir az irəli getmişdik ki, arxadan əsgərlər həyəcanla bizə səslənərək: "Düşmən geri dönüb hücuma hazırlaşır, texnikaların səsi gəlir" dedilər. İrəli getməyib təəssüf hissi ilə geri qayıtdıq. Şamilin şəklini isə sinəsində qumbaraatan tutduğu vəziyyətdə səngərdə çəkdik. Həmin anlarda Şamil Cəbrayılov Haramı düzünün qartalına bənzəyirdi.

Əsgər Şamil Cəbrayılov haqqında məqalə çapa gedən gün Ulu Öndər Heydər Əliyevin fərmanı ilə əsgər Cəbrayılov Şamil Əhliman oğlu döyüşlərdə göstərdiyi igidliyə görə "Azərbaycan Bayrağı" ordeninə layiq görüldü.

Döyüşlərdə göstərdiyi igidliyə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilməsi haqqında Prezident fərmanı ilə əsgər Şamil Cəbrayılov haqqında yazdığımız məqalə eyni nömrədə çap olundu.

Bir müddət sonra eşitdik ki, Şamil döyüşdə ağır yaralanıb, Sumqayıtdakı 2 nömrəli xəstəxanada müalicə olunur.

Şamildən hal-əhval tutmaq üçün Sumqayıta getdik. Şəfa ocağında bizə onun yaxınlıqdakı bərpa mərkəzinə köçürüldüyünü bildirdilər.

...Şamillə köhnə tanışlar kimi mehribancasına görüşüb hal-əhval tutduq. Əsgər son döyüşündən həvəslə danışdı:

- Ermənilər dekabrın son günlərində gözlənilmədən əks-hücuma keçdilər. Əvvəlcə səngərlərimiz toplardan atəşə tutuldu. Artilleriya qurğuları susan kimi düşmən piyadaları hücuma keçdilər. Yerə uzananda çiynimdə güclü ağrı hiss etdim. Güllə dəyən yerdən qan axırdı. Əsgər yoldaşlarım köməkləşib məni hospitala çatdırdılar. İndi özümü yaxşı hiss edirəm. Yaxın günlərdə döyüşçü dostlarımın yanına qayıdacam.

Xəstəxanada çox ləngiməyib əsgər Şamillə, atası Əhliman dayı ilə sağollaşıb iş yerinə qayıtmağa hazırlaşdıq. Əhliman dayı bizi şəfa ocağının çöl qapısına qədər ötürdü. Ayrılarkən bizi kəndlərinə, evlərinə qonaq dəvət etdi. Dedi ki, havalar isinəndə biz tərəflərə, Otuzikilərə gəlin, yolunuzu gözləyəcəyik. Ağsaqqalın sözünü yerə salmayıb "Allah qoysa gələrik", - dedik.

...Günlərin bir günü yol aldıq İmişlinin Otuzikilər kəndinə. Soruşa-soruşa Əhliman dayının evinə, həyətinə gəlib çıxdıq. Bizi qapıda ordenli əsgər Şamil Cəbrayılov, anası Pakizə xala və kiçik qardaşı Bəhruz qarşıladı. Səsə Şamilin qonşuluqda yaşayan dayıları, əmiləri və başqa yaxınları da gəldilər. Əhliman kişi evdə yox idi, rayon mərkəzinə getmişdi.

Şamilin əmiləri, dayıları keçmiş günləri xatırlayaraq illərcə əvvəl Əhlimanın Muxtar adlı əsgər yoldaşının onlara gəlib-getdiyindən söz saldılar. Şamilin atasının əsgərlik yoldaşlarının adları, onların xidmət etdikləri şəhər mənə bu səfərdə yoldaşlıq edən qayınatam İbrahim kişiyə çox tanış gəldi. Bunları eşidəndən sonra o, Əhliman dayının keçmiş ittifaqın hansı ölkəsində xidmət etdiyi ilə maraqlandı. Məlum oldu ki, onlar ötən əsrin altmışıncı illərində keçmiş ittifaqın Karel-Fin Muxtar Vilayətinin, Kuzema stansiyasının yaxınlığındakı hərbi hissədə birgə xidmət ediblər. Çox qəribə bir təsadüf idi.

### 32 ildən sonra Otuzikilər kəndində görüşən 2 əsgər dost

Şamil atasının əsgərlik şəkillərini gətirdi. Bu şəkillər sanki bir anlıq bizi qanadlarının üstünə alıb ötən illərə qaytardı. Otuz iki il bundan əvvəl çəkilmiş və demək olar ki, artıq yavaş-yavaş saralmağa başlamış şəkillərə maraqla baxırdıq. Onların birində qayınatamla Əhliman kişi yanaşı dayanıb çox mehribancasına qollarını bir-birinin boynuna aşırmışdılar. Qayınatamın otuz iki ildən sonra təsadüfən əsgərlik yoldaşının Otuzikilər kəndindəki evinə gəlib çıxması, onu burada tapması hamımızı heyrətləndirmişdi.

Bir az keçəndən sonra Əhliman kişi rayon mərkəzindən qayıtdı. Gəldiyimizi görəndə xeyli sevindi. Otağa girəndə birinci bizimlə görüşdü. Sonra yanımda oturmuş İbrahim dayıya əl uzadıb diqqətlə üzünə baxdı. Soruşduq ki, Əhliman dayı, nədən ona belə zəndlə baxırsan, olmaya sifəti sənə tanış gəlir? O, heç nə demədən, diqqətlə İbrahimin üzünə baxdı. Həyəcanlı anlar bir-birini əvəz edirdi. Hamımız nəfəsimizi içimizə çəkib bir anlıq baxışlarımızı ona yönəltmişdik. Otaqda sakitlik hökm sürürdü. Ağsaqqalın otuz iki il əvvəl eyni hərbi hissədə qulluq etdiyi əsgər yoldaşını tanıyıb-tanımayacağını gözləyirdik. Əhliman dayı birdən qayınatamdan soruşdu:

- Sən Xankişiyev deyilsən?

Bu sözü ondan eşidəndə heyrətdən hamımızın tükləri biz-biz oldu, gözümüz yaşardı. Aradan uzun illər keçməsinə baxmayaraq, Əhliman kişi qayınatamın sifət cizgilərini, hətta soyadını belə hafizəsində qoruyub saxlamışdı.

Sonra onlar əsgər dostları kimi təzədən qucaqlaşıb görüşdülər. Şirin söhbət onları tarixə dönmüş ötən illərə, keçmiş günlərə - otuz iki il əvvələ çəkib apardı. Xatirələr çözələndi, ömür kitabları asta-asta üzü keçmişə doğru vərəqləndi.

Bir neçə gün Otuzikilərdə qalıb onların halal çörəklərini kəsdik. Belə səmimi insanlarla yaxından tanışlığımız bizə böyük məmnunluq yaşatdı.

Soyuq dekabr günlərində Haramı düzündən başlanan bu dostluğumuz hələ də davam edir. Yenə də İmişliyə gedib Əhliman dayı ilə, ordenli igid Şamillə görüşürük. Bizi bir-birimizə qovuşduran körpülərin dayaqları və təməli çox möhkəmdir. Çünki onun bünövrəsi barıt qoxulu səngərlərdə qoyulub. Soyuq dekabr günəşinin ılıq nəfəsi hələ bundan sonra da ürəklərimizi isidəcək.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*




# *Müşavir:* "Britaniyada COP29-a böyük maraq müşahidə edilir"

Britaniyanın Loughborough Universitetində Azərbaycanda keçiriləcək COP29 çərçivəsində "Sıfır emissiya hədəfinə gedən yolda beynəlxalq tərəfdaşlığın rolu" mövzusunda tədbir keçirilib. Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin müşaviri Günel Səlimova tədbirdə çıxış edib.



Günel Səlimova AZƏRTAC-a bildirib ki, Britaniya hökumətində və cəmiyyətində COP29-a yüksək maraq müşahidə edilir. Britaniya hökuməti ilk gündən COP29-un uğurla keçirilməsi üçün Azərbaycana dəstək göstərməyə və ölkəmizlə əməkdaşlıq etməyə hazır olduğunu bəyan edib. Britaniyada fəaliyyət göstərən ictimai xadimlər, ekspertlər, akademiklər, iş adamları COP29-da iştirakda və müvafiq əməkdaşlıqlar qurmaqda maraqlı olduqlarını ifadə edirlər. Diplomat Avropanın iqlim fəaliyyəti üzrə qabaqcıl rola malik ölkəsi, uzun illər Azərbaycanla enerji sahəsində sıx və səmərəli əməkdaşlıq edən Britaniya ilə ikitərəfli əlaqələrimizdə "yaşıl inkişaf" sahəsində əməkdaşlıq üçün geniş imkanların açıldığını da vurğulayıb.

# Azərbaycan COP29-la əlaqədar elektron viza portalını istifadəyə verib

Azərbaycan hökuməti bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasında (COP29) iştirak etmək üçün akkreditasiyadan keçmiş nümayəndələrə pulsuz viza almaq imkanı yaradıb.




Bu barədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) katibliyindən bildirilib.

Məlumata görə, sənədi rəsmi viza portalı, eləcə də Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə əldə etmək olar. "COP29 vizası sənədi rəsmi elektron viza portalı vasitəsilə almaq üçün onlayn müraciət edildikdən və ya Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarına ərizə verildikdən sonra üç iş günü ərzində verilir", - məlumatda qeyd olunub.

# *Şahab ŞAYAN:* "Azərbaycan COP29 təcrübəsini davamlı turizmi gücləndirmək üçün istifadə edə bilər"

"Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi zamanı Dubay təcrübəsini mənimsəyə və ölkədə davamlı turizmi gücləndirmək üçün istifadə edə bilər".




Bunu "Report"a müsahibəsində Dubayın İqtisadiyyat və Turizm Departamentinin Asiya-Sakit Okean regionu üzrə beynəlxalq əməliyyatlar üzrə regional direktoru Şahab Şayan bildirib.

Onun sözlərinə görə, Dubay turizmdə ekoloji dayanıqlılığı təmin etmək üçün layihələri fəal şəkildə həyata keçirir: "Məsələn, COP28-ə hazırlığa infrastrukturun inkişafı, həmçinin mehmanxana və turizm sektorunda ekoloji cəhətdən məsuliyyətli təcrübələrin tətbiqi üçün əhəmiyyətli səylər daxil idi. Biz, Azərbaycana COP29-a hazırlıq prosesində hərtərəfli dəstək verməyə hazırıq", - regional direktor qeyd edib.

Qeyd edək ki, 2023-cü il noyabrın 30-dan dekabrın 12-dək Dubayda BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasının (COP28) Tərəflər Konfransının 28-ci sessiyası keçirilib. COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar Dubayda elan edilib.

Azərbaycan BMT çərçivəsində öhdəliklərə hələ 2015-ci ildə qoşulub - Paris iqlim sazişi (198 ölkə imzalayıb), istixana effekti səbəbindən qlobal istiləşmə ilə bağlı dünya dövlətlərinin narahatlığını bölüşür.

# Azərbaycanın geotermal enerji mənbələri hansı perspektivlər vəd edir?

Geotermal enerji davamlı, etibarlı və ekoloji cəhətdən təmiz olduğu üçün qlobal miqyasda böyük rəğbət görür. Geotermal enerjidən elektrik enerjisi istehsal edən ilk beş ölkə ABŞ, İndoneziya, Filippin, Türkiyə və Yeni Zelandiyadır.



"Trend" Azərbaycanın geotermal enerji ehtiyatlarını araşdırıb.

Azərbaycan zəngin enerji ehtiyatlarına malik ölkə kimi həm də geotermal enerji potensialına malikdir. Geotermal enerji istilik və soyutma məqsədləri üçün və ya təmiz elektrik enerjisi istehsal etmək üçün istifadə edilə bilər.

Geotermal enerji mənbələri hava şəraitindən asılı olmayaraq, həftənin 7 günü 24 saat elektrik enerjisi istehsal etmək gücünə malikdirlər. Elektrik enerjisi isə geotermal yataqlarda qazılan quyulardan buxar və suya ayrıldıqdan sonra turbinlər və generatorlar vasitəsilə istehsal olunur.

Azərbaycan hökuməti və müxtəlif tədqiqat institutları geotermal enerji potensialını qiymətləndirmək və bu sahədə daha çox məlumat əldə etmək üçün müxtəlif tədqiqatlar aparır. Azərbaycan bərpaolunan enerji mənbələrinin şaxələndirilməsi və dayanıqlı enerji həllərinə keçid üçün addımlar atır. Bu kontekstdə geotermal enerji də potensial resurs hesab olunur.

Bununla belə, geotermal enerjinin genişmiqyaslı istifadəsini təşviq etmək və inkişaf etdirmək üçün daha çox investisiya və infrastruktur tələb olunur. Bu potensialı tam qiymətləndirmək üçün daha çox tədqiqat, investisiya və inkişaf işləri zəruridir. Hazırda geotermal enerji ölkənin enerji strategiyasında qalıq yanacaqlardan sonra daha məhdud yerə malikdir.

# Ötən hər gün bizi COP29-a yaxınlaşdırır

## COP29 sədrliyi şəffaflıq hesabatlarını təqdim etməyə çağırır

**İşə başlamasına getdikcə az zaman qalan qlobal konfransın yüksək səviyyədə təşkili üçün Azərbaycan hazırlıqlar çərçivəsində müntəzəm olaraq müxtəlif məzmunlu tədbirlər keçirir. Belə tədbirlərdən biri də, xəbər verildiyi kimi, sentyabrın 3-də COP29 sədrliyinin Bakı Qlobal İqlim Şəffaflığı Platformasını (BTP) işə salması ilə bağlı olmuşdur.**



Tədbir BTP Tərəflər arasında qarşılıqlı inam yaratmaq, inkişaf etməkdə olan ölkələrə İkiillik Şəffaflıq Hesabatlarının (BTR) hazırlanmasında və yekunlaşdırılmasında dəstək olmaq, Təkmilləşdirilmiş Şəffaflıq Çərçivəsində (ETF) universal iştirakı təşviq etmək və COP29-dan kənarda şəffaflıq gündəmini inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Qarşıdakı aylarda COP29 sədrliyi Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya, Afrika, Asiya-Sakit Okean, Latın Amerikası və Karib hövzəsi üzrə şəffaflığa dair bir sıra regional seminarlara evsahibliyi edəcək. O, həmçinin BMT Baş Assambleyasının Nyu Yorkda keçiriləcək 79-cu sessiyası zamanı UNFCCC Katibliyi və BTP-nin tərəfdaşları tərəfindən dəstəklənən Qlobal Şəffaflıq Dialoqunu çağıracaq.

Tədbirin açılışında çıxış edən Ekologiya və Təbii Sərvətlər naziri, COP29-un təyin olunmuş prezidenti Muxtar Babayev deyib: "COP29 Rəyasət Heyəti gələcək nəsil milli iqlim planlarında əks olunan ambisiyaları artırmaq üçün mühüm addım kimi Bakı Qlobal İqlim Şəffaflığı Platformasını (BTP) işə saldı. Sözlərimizi və əməllərimizi, tərəqqimizi və problemlərimizi açıq şəkildə bildirməklə, biz iqlimlə bağlı məqsədlərimizə nail olmaq öhdəliyimizi dünya ilə bölüşə bilərik. BTP ilə biz inkişaf etməkdə olan tərəflərə öz BTR-lərini vaxtında hazırlamaqda və tamamlamaqda kömək etmək istəyirik".

Qeyd edək ki, COP29-un fəaliyyətə başlayacağı vaxta 70 günə yaxın bir zaman qalıb. Ona görə də COP29 rəhbərliyi iqlim fəaliyyəti ilə bağlı götürdüyü öhdəliyi nümayiş etdirmək üçün nəzərəçarpan addımlar atır. Bu addımlar sırasında BTR-in rolu əsas götürülür. COP prezidenti deyir ki, ilk BTR-lərin təqdim edilməsi üçün son tarix yaxınlaşır. Ona görə də Azərbaycan iştirakçı dövlətlərə COP29-dan əvvəl şəffaflıq hesabatlarını təqdim etmələrini tövsiyə edir. Hər bir ölkənin fərqli başlanğıc nöqtələrini tanımaqla yanaşı, BTR-lərin erkən təqdim edilməsi şəffaflığa kollektiv öhdəliyin güclü nümayişi olacaqdır. "BTR-lər tərəqqimizi izləmək, inam yaratmaq, əlavə fəaliyyət və investisiya tələb olunan sahələri müəyyənləşdirməkdə əsas rol oynayacaq. Azərbaycan hazırda COP29-dan əvvəl öz BTR-ni təqdim etmək üzərində işləyir. Biz həmçinin COP29-dan əvvəl BTR-ləri vaxtında təqdim etdiklərinə dair bizi əmin edən bütün tərəflərə səmimi təşəkkürümüzü bildiririk. Sizin səyləriniz COP29-da tanınacaq və 31 dekabr 2024-cü il tarixinə doğru son sprintdə başqaları üçün ilham mənbəyi olacaq", - deyə M.Babayev bildirib.

Bakı Qlobal İqlim Şəffaflığı Platformasının əsas məqsədi İkiillik Şəffaflıq Hesabatlarını hazırlamaqda və yekunlaşdırmaqda tərəflərə etimadı artırmaq və dəstəkləməkdir. Təkmilləşdirilmiş Şəffaflıq Çərçivəsinin məqsədi tam spektri üzrə bütün tərəflər arasında əməkdaşlığı və bilik mübadiləsini təşviq etmək, ehtiyac duyulan yerlərdə potensialın gücləndirilməsi resurslarını səfərbər etməkdir. COP29 sədrliyi qlobal konfransda işirak edəcək ölkələri vətəndaş cəmiyyəti, yerli xalqlar, qadınlar, gənclər və digər əsas maraqlı tərəfləri şəffaflıq prosesinə cəlb etməyə təşviq edir. Yalnız inklüziv şəkildə işləməklə iqlimlə bağlı qarşılıqlı ambisiyaları yüksəltmək, kollektiv iqlim məqsədlərinə nail olmaq və hamıya davamlı gələcək yaratmaq üçün tələb olunan etimadı və hesabatlılığı gücləndirmək mümkündür.

COP29-a hazırlıqlar çərçivəsində könüllülərin iştirakı ilə keçirilən tədbirlərdən də söz açmaq yerinə düşər. Bir neçə gün əvvəl Heydər Əliyev Mərkəzində ixtisaslaşmış ekspertlərin rəhbərlik etdiyi iki günlük sessiyada müxtəlif təlimlərdə COP29 könüllüləri də iştirak ediblər. Tədbirdə iqlim dəyişikliyi, davamlılıq və tullantıların idarə olunması da daxil olmaqla bir sıra ekoloji mövzular müzakirə olunub. Təlim sessiyaları zamanı könüllülər bir neçə komandaya bölünüblər və onların hər biri gün ərzində verilən mövzular və tapşırıqlar əsasında layihələrin hazırlanmasına cavabdeh olub. Sonra isə həmin layihələr münsiflər heyətinə təqdim edilib. Könüllülərin layihələri davamlı enerji həllərindən tutmuş innovativ tullantıların idarə olunması təşəbbüslərinə qədər müxtəlif sahələrə aid olub. Münsiflər ən kreativ yanaşma nümayiş etdirən və ən aktual məsələlərə toxunan layihələri mükafatlandırıblar.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Naxçıvanda istehsal olunacaq "yaşıl enerji"nin 1000 meqavatının Türkiyə və Avropaya ixracı nəzərdə tutulur

"Avropaya enerjinin ixrac edilməsində Naxçıvanın perspektiv imkanları var. Naxçıvanı Prezident İlham Əliyev "yaşıl enerji" zonası elan edib. Yəni biz illər sonra Naxçıvanın "yaşıl enerji"sini onun yerli məhsulu kimi tanıyacağıq. Əslində, Naxçıvanın iqtisadi əhəmiyyətə malik yerli brend məhsulları çoxdur. Gələcəkdə "yaşıl enerji" bunların sırasında birinci olacaq. Bu brendi isə biz qürurla Türkiyə üzərindən Avropaya daşıyacağıq".





Bu sözləri AZƏRTAC-a Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin Mətbuat xidmətinin rəhbəri Mətin Abbaslı söyləyib.

Onun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin strukturunda olan stansiyaların ümumi gücü 244,8 meqavatdır və bu nəticəni əldə etmək yarım əsrə yaxın vaxt aparıb.

"Su-elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının generasiya gücü 107,8 meqavatdır ki, bu da ümumi gücün 44,04 faizini təşkil edir. Günəş-elektrik stansiyalarının ümumi gücü isə 39,4 meqavatdır. Biz növbəti 10 il ərzində "yaşıl enerji" ilə istehsal gücümüzü 1500 meqavata çatdırmağı planlaşdırırıq. Naxçıvanda 500 meqavat həcmində günəş-elektrik stansiyasının tikilməsi haqqında layihənin araşdırılması və gələcəkdə icra olunması kimi prioritetlər görülən işlərin bariz nümunəsidir. Bu layihə II Şuşa Qlobal Media Forumunda dövlət başçısı tərəfindən yenidən vurğulanıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"na əsasən, burada "yaşıl enerji" zonasının yaradılması, konsepsiya və tədbirlər planının hazırlanması nəzərdə tutulub. Həmçinin Naxçıvan Muxtar Respublikası ərazisində 7992 hektar əkinə yararsız torpaq sahəsində "yaşıl enerji" layihələrinin reallaşdırılması mümkün olacaq. Energetika Xidməti tərəfindən "yaşıl enerji" layihələrinin icrası ilə bağlı mütəmadi işlər aparılır", - deyə Mətin Abbaslı qeyd edib.

Dövlət Energetika Xidmətinin rəsmisi vurğulayıb ki, alternativ və bərpaolunan enerji mənbələri üzrə külək və günəş-elektrik stansiyalarının qurulması istiqamətində dövlət proqramında aidiyyəti üzrə prioritet istiqamətlər müəyyənləşdirilib: "Bu məqsədlə ilkin mərhələdə layihələndirmə işlərinin aparılması üçün müvafiq məsləhətçi şirkətlərlə danışıqlar aparılıb. Yerli şirkətlərlə yanaşı, xarici şirkətlərdən Türkiyənin, Çexiyanın, Birləşmiş Ərəb Əmirliklərinin, Almaniyanın şirkətləri Naxçıvan Muxtar Respublikasında alternativ və bərpaolunan enerji mənbələrinin qurulmasına maraq göstərirlər və onların bir neçəsi ilə görüşlər keçirilib, müzakirələr aparılıb. Danimarka Krallığının müvafiq şirkəti külək enerjisi sahəsində Naxçıvan Muxtar Respublikasında külək elektrik stansiyalarının tikilməsi üçün layihələrini təqdim edib. Həmin layihələrin muxtar respublika ərazisində texniki-iqtisadi səmərəliliyi araşdırılır. Naxçıvan Muxtar Respublikasından Türkiyəyə elektrik enerjisinin ixracı ilə bağlı da bir neçə şirkətlə görüşlər keçirilib.TEİAŞ (Türkiye Elektrik İletim Anonim Şirketi) və Energetika Xidməti arasında enerji ixracı (mübadiləsi) ilə bağlı müvafiq "Əməliyyat Müqaviləsi"nin bağlanılmasına görə sənədləşmə işlərinin qarşılıqlı müzakirəsi aparılıb. "Əməliyyat Müqaviləsi"nin yaxın zamanlarda imzalanması planlaşdırılır. Türkiyə-Naxçıvan elektrik enerjisi idxalı-ixracı əlaqəsi haqqında ENTSO (European Network of Transmission System Operators) tərəfindən 75 meqavat ixrac (Türkiyə tərəfi passiv ada rejimində olmalıdır), 40 meqavat idxal (Naxçıvan tərəfi passiv ada rejimində olmalıdır) ötürməyə icazə verilib. Bizim əsas hədəflərimiz Naxçıvanda külək və günəş enerjisi üzrə 1500 meqavatlıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 meqavatının Türkiyə və Avropa istiqamətində ixracıdır".

# Fransa qalmaqallar burulğanındadır

## Büdcə kəsiri, maliyyə böhranı ölkəni qarışdırıb, müəllimlər kütləvi tətilə hazırlaşırlar







Fransada ölkənin artan büdcə kəsiri ilə bağlı ciddi narahatlıq var. Bu barədə yerli "Humanite" nəşri iqtisadiyyat, maliyyə, sənaye və rəqəmsal suverenlik naziri Bruno Le Merin respublika parlamentinə göndərdiyi sənədə istinadən yazır.

Əhəmiyyətli əlavə qənaətlər olmadan gözlənilləndən aşağı dövlət gəlirləri ilə birlikdə bu, büdcə kəsirini cari ildə ÜDM-in 5,6 faizinə, hətta 2025-ci ildə 6,2 faizə çatdıra bilər. Bu, vergi daxilolmalarının pisləşməsi, Yeni Kaledoniyada böhran və növbədənkənar seçkilər səbəbindən əlavə xərclər ilə bağlıdır. Gələn il bunun qarşısını almaq üçün 60 milyard avro qənaət tələb olunacaq.

Fransa prezidenti Emmanuel Makron zamanında yeni hökuməti formalaşdırmağa və parlamentdə həm solçu, həm də mühafizəkar fraksiyaları qane edə biləcək baş nazir tapmaqda çətinliklərlə üzləşdiyi siyasi böhran ölkədə vəziyyəti daha da gərginləşdirib. Makron büdcə kəsirini azaltmaq üçün Aİ və maliyyə bazarlarının təzyiqi ilə, eyni zamanda vergi artımı ehtimalı ilə üzləşir.

Fransa artıq Aİ-nin büdcə kəsiri və borc öhdəlikləri ilə bağlı qaydalarını pozub və hazırkı hökumət büdcə kəsirini kompensasiya etmək üçün xərcləri 16,5 milyard avro məbləğində dondurub.

Əslində Paris uzun müddətdir ki, üzv dövlətlərdən büdcə kəsirini hasilatın 3 faizindən aşağı səviyyədə saxlamağı tələb edən Aİ qaydalarına riayət etmir. Onun ÜDM-in 110 faizini təşkil edən ümumi borcu da Aİ-nin normalarına ziddir.

Makronun dövründə ev təsərrüfatları, şirkətlər vergi gəlirlərini on milyardlarla avro azaldıblar.

Nəşr qeyd edir ki, yeni məlumatlar oktyabrda başlayacaq gələn ilin büdcəsinin koordinasiyasını daha da çətinləşdirəcək.

Bu arada Fransada həmkarlar ittifaqları müəllimləri sentyabrın 10-da tətil etməyə çağırıb. Rəsmi məlumatlara görə, Fransanın təhsil müəssisələrində bu il 3185 yer vakant olaraq qalır. Kadr çatışmazlığını kompensasiya etmək üçün təhsil müəssisələri müqaviləli müəllimlərə müraciət etməli olacaqlar. Büdcənin kəsilməsi, qısamüddətli hədəfi olan siyasət, diqqətsizlik və maaşların aşağı olması kimi problemlər arasında müəllim həyəti getdikcə daha çox narahat olur. Bildirilib ki, mövcud vəziyyəti müqaviləli işçilərə əsaslanan həll yolları ilə çözmək mümkün deyil.

Qeyd edilib ki, təhsil ocaqlarında vəzifələrin ləğvi, siniflərdə müəllim çatışmazlığını kompensasiya etmək üçün müqaviləli müəllimlərin işə götürülməsi bütün təhsil sistemini pozan domino effekti yaradır.

Fransada müəllimlərin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OCDE) digər üzv dövlətləri ilə müqayisədə 20 faiz az maaş aldığı vurğulanıb.

Həmkarlar ittifaqları bildirirlər ki, dövlət borcu ilə bağlı aparılan qənaət siyasətinə görə təhsil ocaqlarının maliyyəsinin azaldılması onsuz da çətin olan vəziyyəti daha da ağırlaşdıracaq.

Bildirildiyinə görə, Fransada "Yenilməz Fransa" partiyasının təşəbbüsü ilə Yeni Xalq Cəbhəsi (NFP) blokunun Prezident Emmanuel Makronla bağlı impiçment təhdidi artıq reallaşır. Belə ki, bu blokun 81 deputatı Makronun istefaya göndərilməsinin təklif olunduğu qətnaməni imzalayıb.

Sənəddə deyilir: "Prezident Emmanuel Makronun iyulun 7-də keçirilən parlament seçkilərində qalib gəlmiş koalisiyadan baş nazir təyin etməkdən imtinasından sonra təklif olunan bu qətnamənin müəllifləri parlamentin ölkə Prezidentinə qarşı impiçment proseduruna başlamasını istəyirlər. Bu imtina son iki respublika tarixində misli görünməmiş haldır".

Qətnamədə xatırladılır ki, Avropa İttifaqının üzv ölkələrində hökuməti qurmaq hətta azlıq təşkil etsə belə, seçkilərdə qalib gələn partiyaya həvalə olunur.

Son məlumata görə, Fransa prezidenti Emmanuel Makron sabiq Avropa komissarı və Fransanın sabiq xarici işlər naziri Mişel Barnyeni yeni baş nazir təyin edib və ona birlik hökuməti qurmağı tapşırıb. Bu barədə Yelisey sarayının mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, Makron üçün başlıca meyarlardan biri əsas siyasi qüvvələrin yeni kabinetə etimadsızlıq votumu təqdim etməkdən imtinası ilə bağlı konsensusdur. Əgər sol "Yeni Xalq Cəbhəsi" koalisiyasından olan deputatlar hələ də təklif etdikləri namizəddən başqa her hansı namizədi bloklamaqla hədələyirlərsə, "Milli birlik" qrupu və respublikaçılar Barnye haqqında hələ birmənalı danışmırlar. "Milli birlik"dən olan bir sıra deputatlar isə yeni Baş nazirin gələcək siyasi proqramla bağlı bəyanatını gözləməyə çağırıblar.

Mişel Barnye hökumət başçısı postunda 2024-cü ilin yanvarında bu vəzifəyə təyin edilmiş və Fransa tarixində ən gənc baş nazir olmuş 35 yaşlı Qabriel Attalı əvəzləyəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Separatçılar Ermənistandan qovulurlar



Son dönəmlərdə erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, erməni xalqının rifahı Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar.

Çünki artıq xaricdəki diasporları da onların imdadına çata bilmirlər. Buna görə də ermənilər sülh müqaviləsinin imzalanmasını xilas formulu olaraq görürlər.

Lakin sülhə qarşı çıxaraq, yersiz etirazlarla xalqı səhv istiqamətə yönəltməyə çalışan keçmiş hərbi xuntanın revanş istəyi vəziyyəti gərginləşdirməkdədir.

Ermənistanın keçmiş Baş naziri Hrant Baqratyan deyib ki, Nikol Paşinyanın vəd etdiyi sülh baş tutmayacaq. O, Paşinyanın konstitusiya ilə bağlı referendumun 2027-ci ildə keçiriləcəyi, yeni 2026-cı ildə yenidən seçiləcəklərinə əmin olduqları barədə açıqlamasına toxunaraq bildirib: "Onlar əmindirlər, çünki 2026-cı ildə daha bir seçki olacağını gözləyirlər və kartlarını qarışdıracaqlar. Təxminən 10-15 partiya müxalifət partiyası elan olunacaq. Keçən il İrəvanda mer seçkilərində onlar 9 faiz səs topladılar, şəhər başçısı oldular. Seçilmiş 13-14-15 qüvvə guya müxalifət idi, onların heç də müxalifətçi olmadığı ortaya çıxdı. Belə bir ssenari yenə də hazırlanacaq, yəqin ki, koalisiya elan edib qalib gələcəklər. Hər şey real müxalifətin özünü necə aparacağından, seçkiləri 2026-cı ilə qədər təxirə salıb-salmayacaqlarından, yaxud adi seçki olsa belə, birləşə bilib-bilməyəcəklərindən asılıdır".

Bu arada Ermənistanda fəaliyyət göstərən, uzun müddət Qarabağda Azərbaycana qarşı döyüşmüş "Yerxapah" terror təşkilatının rəhbəri Ara Xudaverdyan separatçıların rəhbəri Samvel Şahramanyanı sərt formada tənqid edib. O, Şahramanyanı Rusiyanın sifarişini yerinə yetirməkdə ittiham edib. Xudaverdiyanın sözlərinə görə, separatçıbaşı Qarabağı satıb, yeyib, qarət edib: "Bu adam Qarabağı məhv edib, Yevlaxda diz çöküb. Amma Ermənistan hakimiyyətini tənqid edir". O deyib ki, həm müxalifət, həm də Şahramanyan Ermənistanı "Ani xarabalıqları"na çevirmək istəyir. Yəni multidisiplinar qurum Rusiyaya təbe olmaqla, əvəzində milyonlarla dollar üçün Ermənistanı məhv etmək istəyir.

Terror təşkilatının rəhbəri onu da bildirib ki, Qarabağın ləğvi ilə bağlı Şahramanyanın imzaladığı fərmanın ciddi hüquqi əsası var: "Onlar deyirlər ki, Qarabağın ləğvi ilə bağlı fərmanın hüquqi əsası yoxdur. Yalan danışırlar. Özlərinə bəraət qazandırmaq istəyirlər. Həmin fərman Dağlıq Qarabağdakı qurumun ləğvini qanuniləşdirir". Xudaverdiyan separatçıları başqa məsələlərdə də ittiham edib. "Belə bacarıqlı idilərsə, Azərbaycana təhvil verdikləri silahlarla Qarabağı qoruyardılar. Gəlib, Ermənistanda oturub, Qarabağı burадan tələb etməsinlər. Qarabağdan qaçaraq, burada oyunbazlıq edən adamların Ermənistanda olması ölkənin təhlükəsizliyinə xələl gətirir. Biz onlardan ən pisini gözləməliyik. Məqsədləri Ermənistanı aciz vəziyyətə salmaq, ərazilləri zəifləməkdir ki, burada 10 səslə yenidən idarəçi seçsinlər, o da öz işini görsün".

Göründüyü kimi, sülh müqaviləsini uzatmağa çalışan Hayastan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə proseslərin gedişi İrəvanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə

10 oktyabr 2024-cü il saat 11:00-da Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 120 ünvanında yerləşən "Bakı Sığorta" ASC-nin Baş ofisində cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 120 ünvanında yerləşən inzibati binanın 6-cı mərtəbəsi), həmçinin 969 telefon nömrəsi vasitəsi ilə müraciət edilə bilər.

*Rəhbərlik*

# Heydər Əliyev Beynəlxalq Aeroportu və Medianın İnkişafı Agentliyi vətəndaşlara xəbərdarlıq edib

Son günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunun adından sosial şəbəkələrdə açılmış saxta səhifələrdə guya itmiş baqajların satışı ilə bağlı elanlar yerləşdirilir və vətəndaşların şəxsi məlumatlarının toplanmasına cəhd göstərilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportu və Medianın İnkişafı Agentliyi birgə məlumat yayıb.

Bildirilib ki, bu tip məlumatlar tamamilə saxtadır və Heydər Əliyev Beynəlxalq Aeroportu ilə heç bir əlaqəsi yoxdur.

"Vətəndaşlarımızı diqqətli olmağa çağırır, məlumatları yalnız rəsmi mənbələrdən, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportunun rəsmi airport.az saytından, sosial şəbəkə hesablarından izləməyi tövsiyə edirik. Saxta material, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin ediləcəkdir", - deyə məlumatda bildirilir.

# Meymunçiçəyi dünyanı təhdid edir

İlk dəfə iki il öncə İngiltərədə aşkarlanan, daha sonra Avropa ölkərində başlayan meymunçiçəyi virusu çox qısa müddət ərzində dünyanın digər qitələrinə də keçib. Artıq 70-dən çox ölkədə bu virusa rast gəlinib.



Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti Mərkəzi (ECDC) qitədə meymunçiçəyi virusunun riskinin aşağı səviyyədə olmasına baxmayaraq, ölkələri onunla mübarizəyə hazır olmağa çağırıb.

Azərbaycan Səhiyyə Nazirliyinin məlumatına görə, respublikamızda bugünədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb. Ölkəmizin ərazisində, xüsusilə sərhəd-keçid məntəqələrində meymunçiçəyinə şübhəli hallar üzərində epidemioloji nəzarət gücləndirilib.

### Epidemiyaya qarşı hazırlıqlı olmaq lazımdır

Avropa Parlamentinin Ətraf Mühit, İctimai Sağlamlıq və Qida Təhlükəsizliyi Komitəsi, Avropa İttifaqı Komissiyasının Səhiyyədə Fövqəladə Hallara Hazırlıq və Cavab Agentliyi, Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti Mərkəzi və Avropa Dərman Agentliyinin təşkil etdiyi iclasda meymunçiçəyi virusu ilə bağlı mövcud vəziyyət və hazırlıqlar müzakirə edilib.

ECDC-nin direktoru Pamela Rendi-Vaqner bildirib ki, hazırda qitədə epidemiya riski az olsa da, Avropa İttifaqı daxilində "idxal halları"nın sayının artması ehtimalına hazır olmaq lazımdır.

İclasda P.Rendi-Vaqner ECDC-nin Avropa İttifaqına üzv dövlətləri epidemiyaya qarşı hazırlamaqla yanaşı, Afrikada, xüsusilə Konqo Demokratik Respublikasında epidemiyaya nəzarət etməyin və onun digər qitələrə yayılmasının qarşısını almağın vacibliyini də vurğulayıb.

İnsanların meymunçiçəyinin də COVID-19 kimi pandemiyaya səbəb olacağından qorxduğunu söyləyən direktor bildirib ki, bu iki virus fərqli yollarla yayıldığı, fərqli risklərə malik olduğu və virusa qarşı peyvənd olduğu üçün narahatlığa əsas yoxdur: "Bütün əhalini əhatə edən peyvəndləmə ehtiyac yoxdur. Peyvənd barədə virus dövriyyəsi yüksək olan bölgələrə səyahət edən avropalılar, xüsusilə ağır xəstəlikləri olan və yüksək risk yaşayan olan insanlar düşünməlidirlər".

### İlk əlamətlər aşkarlandıqda dərhal həkimə müraciət olunmalıdır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-infeksionist Aişə Kərimovanın sözlərinə görə, meymunçiçəyi, adətən heyvanlardan insanlara keçən nadir virusmənşəli bir infeksiyadır: "Xəstəlik xüsusilə meymunlar və gəmiricilər vasitəsilə yayılsa da, insandan insana da keçir. Xəstəliyin əlamətləri qızdırma, baş və əzələ ağrıları, yorğunluq, limfa düyünlərinin şişməsi, dəri səpgiləridir. Səpgilər əvvəlcə qızartı, sonra maye ilə dolu qabarlar şəklində görünür və son olaraq qabıq bağlayaraq quruyur. Virusun yayılma tezliyi nisbətən aşağıdır, lakin xəstə ilə uzunmüddətli təmas riski artırır".

A.Kərimova qeyd edib ki, meymunçiçəyi virusuna yoluxmamaq üçün xəstə insanlarla təmasdan çəkinmək, virusa yoluxmuş şəxslərin səpgi və yara izlərinə toxunmamaq, meymun, gəmirici və xəstə heyvanlarla birbaşa təmasdan uzaq olmaq lazımdır: "Bu mümkün olmadıqda isə xəstə insan və ya heyvanlarla təmas zamanı əlcək geyinməli, əllər sabun və su ilə tez-tez yuyulmalı, spirtəsaslı dezinfeksiya vasitəsindən istifadə edilməlidir. Xəstəlik riskinin yüksək olduğu yerlərdə xüsusi geyimlərdən istifadə vacibdir. Virusa yoluxmuş insan və ya heyvanların istifadə etdiyi səthləri mütəmadi olaraq dezinfeksiya etmək lazımdır. Virusun yayılma riskinin yüksək olduğu regionlara səyahət edərkən gigiyena qaydalarına ciddi riayət edilməlidir".

Xəstəliyin ilk əlamətlərini aşkarlayan kimi dərhal həkimə müraciət olunmalıdır. İnfeksionist deyir ki, meymunçiçəyi özünü daha yüngül formada göstərə bilər, lakin hər hansı ağırlaşmaların qarşısını almaq üçün mütəxəssis nəzarəti vacibdir: "Virusun əlamətlərinə rast gələn hər kəs ilk olaraq başqalarını yoluxdurmamaq üçün özünü təcrid etməlidir. Təcrid dövrü xəstəliyin bütün simptomları keçənədək davam etməlidir. Həkimin təyin etdiyi müalicəyə riayət mütləqdir. Meymunçiçəyi üçün xüsusi müalicə yoxdur. Müalicə dövründə simptomları yüngülləşdirən və xəstəliyin ağırlaşmasının qarşısını alan dərmanlardan istifadə olunur".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


"Bilgə Qrup" QSC-yə (VÖEN: 1305697041) məxsus tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri fəaliyyətinə dair EL-460/2023 qeydiyyat nömrəli 13.06.2023-cü il tarixli lisenziya və EL-460/2023/1 qeydiyyat nömrəli 13.06.2023-cü il tarixli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4091
Sifariş 2006

Qiyməti 60 qəpik